HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 35 (877) ■ 13 sentyabr 2017 www.vergiler.az Qiymәti: 60 qәp.

# Azərbaycan Prezidenti İlham Əliyev:
## «Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz»

**Azərbaycan Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitində iştirak etmək üçün sentyabrın 9-da Qazaxıstana işgüzar səfərə gedib. Dövlətimizin başçısını Qazaxıstan Respublikası Baş nazirinin müavini Yerbolat Dosayev və digər rəsmi şəxslər qarşılayıblar.**




Ermənilər məscidlərimizi dağıdıblar. Ancaq bu məscidlər bizim qəlbimizdə ucaldılıb, onları heç bir qüvvə dağıda bilməz

Sammit müqəddəs «Qurani-Kərim»dən ayələrin oxunması ilə başlayıb. Tədbirin açılış sessiyasında çıxış edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev son zamanlar İslam ümmətinin çətin sınaqlarla üzləşdiyini, müsəlman ölkələrində ekstremist və terrorçu təşkilatların yayıldığını təəssüf hissi ilə qeyd edərək bildirib ki, bundan daha çox İslam ölkələri əziyyət çəkir. Eyni zamanda, bu, Qərb ölkələrində islamofobiya meyillərinin, eləcə də müsəlmanlara qarşı zorakılığın artmasına səbəb olur. Myanmada müsəlmanlara qarşı yaşanan kütləvi zorakılıq hallarının İslam ölkələrində dərin narahatlıq doğurduğunu ifadə edən Qazaxıstan Prezidenti bu problemin dialoq yolu ilə BMT-nin əsas prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğulayıb. N.Nazarbayev çıxışında İslam ölkələrində elm və texnologiyanın inkişaf etdirilməsi üçün «G-20» formatında beynəlxalq forumun yaradılmasını təklif edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dövrdə cəmiyyətin tərəqqisində mühüm rol oynayan elm və texnologiyanın İslam ölkələrində inkişaf etdirilməsinə həsr olunan Sammitin önəmini vurğulayaraq, ölkəsində İƏT-ə üzv dövlətlərdən 9500 tələbənin təhsil aldığını qeyd edib. İslam aləmində son dövrdə yaşanan proseslərin müsəlman ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsi zərurətini ortaya çıxardığını deyən R.T.Ərdoğan elm və texnologiyanın inkişaf etdirilməsi məqsədilə irəli sürülən təşəbbüslərə siyasi dəstəyin verilməsinin vacibliyini bildirib.

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn müsəlman ölkələrində də elm və texnologiyanın inkişafına xidmət edəcək belə bir Sammitin təşkilini yüksək qiymətləndirib. Bildirib ki, Sammitdə qəbul olunacaq qərarlar bu sahənin inkişafı məqsədilə görülən işlərə böyük təkan verəcək.

Tədbirdə çıxış edən digər müsəlman ölkələrinin liderləri müsəlman ölkələrində davamlı iqtisadi inkişafa nail olunmasında sabitliyin təmin edilməsinin önəmini vurğulayıb, qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin, mövcud potensialdan səmərəli istifadənin vacibliyini, elm və texnologiyanın inkişaf etdirilməsinin dayanıqlı tərəqqiyə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıblar.

Sonra Sammit işini «XXI əsrdə elmin cəmiyyətə artan təsiri» mövzusunda sessiya ilə davam etdirib. Tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkjəmizin İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu və son bir neçə ildə paytaxt Bakıda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşünün keçirildiyini xatırladıb. Dövlətimizin başçısı qeyd edib ki, İƏT də öz növbəsində Azərbaycana böyük dəstək göstərir və ölkəmizin apardığı siyasətə yüksək qiymət verir: «İƏT daim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləyən ədalətli mövqe nümayiş etdirib və Azərbaycanın ədalətli mövqeyini əks etdirən bir çox qətnamələr qəbul edib. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş Zirvə görüşündə Ermənistanın Azərbaycana qarsı təcavüzü ilə əlaqədar Təmas Qrupu yaradılmışdır. Biz bu qərarı çox yüksək qiymətləndiririk və bu ədalətli mövqeyə görə İƏT-ə və onun üzvlərinə təşəkkürümüzü bildiririk».

Prezident İlham Əliyev bildirib ki, BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul edib: «Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ermənistan bu qətnamələri icra etmir və buna görə onlara qarşı sanksiyalar tətbiq olunmur. Bu, ikili standartlardır. Ermənistan 25 ildən çoxdur ki, Azərbaycanın əzəli, tarixi torpağı olan Dağlıq Qarabağı və digər yeddi rayonumuzu işğal edib. Bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətində yaşayır. Ermənilər xalqımıza qarşı etnik təmizləmə siyasəti aparmışlar, Ermənistan hərbi cinayətlər törətmişdir. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törətmişdir. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı erməni faşistləri tərəfindən vəhşicəsinə qətlə yetirilib. Onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. Ondan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyıb. Erməni vəhşiliyi bu gün də davam edir. Bu ilin iyul ayında iki yaşlı azərbaycanlı körpə nənəsi ilə birlikdə ermənilər tərəfindən atılan mərmi nəticəsində həyatını itirmişdir. Bu, vəhşilikdir. Bu, erməni faşizminin növbəti qanlı cinayətidir».

İşğal edilmiş torpaqlarımızda Ermənistan rəhbərliyinin göstərişi ilə bütün məscidlərimizin dağıdıldığına diqqəti yönəldən dövlətimizin başçısı qeyd edib ki, Şuşa, Ağdam və digər şəhərlərimizin dağıdılmış məscidlərinin fotoşəkilləri erməni vandalizminin sənədli sübutudur: «Ermənistanda islamofobiya pik həddə çatıb. Ermənistan çox çalışır ki, müxtəlif müsəlman ölkələri ilə əlaqələrini genişləndirsin. Onların riyakar və yalan sözlərinə inanmaq lazım deyil. Azərbaycanda müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz. Keçən ilin aprel ayında qəhrəman Azərbaycan Ordusu torpağımızın bir hissəsini erməni işğalçılarından azad edib. Biz orada yeni qəsəbə salmışıq. 150 evdən ibarət Cocuq Mərcanlı qəsəbəsində məktəb, tibb mərkəzi və məscid tikilib. Ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində tikdik. Bu, bir daha Azərbaycan xalqının yenilməz ruhunu, öz dini dəyərlərinə bağlılığını göstərir. Ermənilər məscidlərimizi dağıdıblar. Ancaq bu məscidlər bizim qəlbimizdə ucaldılıb, onları heç bir qüvvə dağıda bilməz».

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfə verir: «Biz dünyanın müxtəlif bölgələrində baş qaldıran islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Biz müsəlmanlara qarşı törədilən cinayətləri, xüsusilə də son vaxtlar Myanmada Rohingiya müsəlmanlarına qarşı həyata keçirilən qətliam və kütləvi zorakılıq hallarını qətiyyətlə pisləyirik. Biz beynəlxalq təşkilatları, dünya ictimaiyyətini, siyasi və dini liderləri Myanmada baş verən hadisələrin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırırıq. Yeri gəlmişkən, bildirmək istəyirəm ki, sentyabrın 8-də Azərbaycan Rohingiya qaçqınlarına humanitar yardım - 100 ton ərzaq məhsulu göndərmişdir. 2017-ci il Azərbaycanda «İslam Həmrəyliyi İli» elan olunub. Eyni zamanda, bu il Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu möhtəşəm dostluq və qardaşlıq bayramında 50-dən çox müsəlman ölkəsi iştirak etmişdir. Əminəm ki, üç minə yaxın idmançı və minlərlə qonaq Bakıdan ən xoş təəssüratlarla ayrılmışdır».

Sammit çərçivəsində «Davamlı inkişafda elm və texnologiyaların rolu», «Müasir iqtisadiyyatda rəqabət və innovasiyalar», «Elm və texnologiyalar sahəsində əməkdaşlığın inkişafı» mövzularında sessiyalar keçirilib, zəngin təbii resurslara malik olan müsəlman ölkələrində yoxsulluq, aclıq, işsizlik problemlərinə, eləcə də elm, təhsil, texnologiya sahələrində inkişaf məsələlərinə dair müzakirələr aparılıb. Sammitin sonunda İslam dünyasının elmi və texnoloji inkişafı üçün siyasi dəstək prosesinin başlanmasını nəzərdə tutan Astana Bəyannaməsi qəbul edilib.

Astanada Prezident İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub. Dövlətimizin başçısı Həsən Ruhanini yenidən İran Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, İran Prezidenti ilə xeyli sayda keçirdiyi görüşləri məmnunluqla xatırladaraq həmin görüşlər zamanı səmərəli danışıqların aparıldığını vurğulayıb. Ölkələrimiz arasında imzalanan sənədlərin uğurla icra olunduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycan-İran dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirib. Prezident Həsən Ruhani ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayaraq deyib ki, biz qarşıya qoyduğumuz məqsədləri müvəffəqiyyətlə yerinə yetirmək üçün səylərimizi birləşdirməliyik. İranın yeni seçilən hökuməti də Azərbaycan ilə dostluq münasibətlərinin inkişaf etdirilməsi işinə sadiqdir. Ölkələrimiz arasında uğurlu layihələrin həyata keçirildiyini xatırladan İran Prezidenti bu baxımdan dəmir yolu layihəsini xüsusi vurğulayıb. Bildirib ki, bu dəmir yolu layihəsi beynəlxalq əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Şimal-Cənub nəqliyyat dəhlizinin önəminə toxunan H.Ruhani Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlığının regional və beynəlxalq əməkdaşlıq baxımından əhəmiyyətini qeyd edib. İran Prezidenti Azərbaycan, İran və Rusiya dövlət başçılarının növbəti üçtərəfli zirvə görüşünün Tehranda keçiriləcəyini bildirərək, Prezident İlham Əliyevi həmin tədbirə dəvət edib.

Terrorizmin regionda sülhə və sabitliyə ciddi təhdid yaratdığını deyən H.Ruhani beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan ilə birgə səylərin artırılmasında maraqlı olduqlarını qeyd edib.

Prezident İlham Əliyev Astanada Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə də görüşüb. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb, ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların indiki vəziyyəti və perspektivləri müzakirə olunub.

...Qazaxıstanda işgüzar səfərdə olan Prezident İlham Əliyev Astanada keçirilən «EXPO-2017» beynəlxalq sərgisində Azərbaycanın və Qazaxıstanın milli pavilyonları ilə tanış olub. Bildirilib ki, iyunun 10-da açılan sərgidə Azərbaycan da daxil olmaqla 115 ölkə, 22 beynəlxalq təşkilat təmsil edilir.

Qeyd edilib ki, «EXPO 2017 Astana» sərgisində öz iştirakını təsdiq edən ilk ölkələrdən olan Azərbaycanın pavilyonu ən çox ziyarət edilənlər arasındadır. Sərgi müddətində Azərbaycan milli pavilyonunu ziyarət edənlərin sayı bir milyonu ötüb. Heydər Əliyev Mərkəzi və Energetika Nazirliyi tərəfindən təşkil edilən Azərbaycan pavilyonu «Enerji Yurdu - keçmişdən gələcəyə daşınan enerji» konsepsiyası əsasında hazırlanıb. Milli pavilyonun konsepsiyası «Enerji Yurdu - keçmişdən gələcəyə daşınan enerji» devizinə əsaslanır.

# ATƏT Azərbaycanla qarşılıqlı əməkdaşlığa xüsusi önəm verir

Sentyabrın 8-də Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttoneni qəbul edib. ATƏT-in Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini deyən Kristin Muttonen qurumun Azərbaycandakı nümayəndəsinin bu münasibətlərin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəmədiyini vurğulayıb, ölkəmizin ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin də çox fəal işlədiyini, mühüm təşəbbüslər və qətnamələr irəli sürdüyünü qeyd edib. Bu vəzifədə Azərbaycana ilk dəfəd səfər etdiyini deyən qonaq Prezident İlham Əliyevin təhsil müəssisələrinə göstərdiyi diqqətə toxunaraq məktəb və təhsillə bağlı məsələlərin ölkə üçün ən vacib məsələlər sırasında olduğunu qeyd edib, ölkəmizdə bu istiqamətdə çox işlərin görülməsinin, o cümlədən yeni məktəblərin tikilməsinin önəmini diqqətə çatdırıb.

Azərbaycanda son vaxtlarda irəli sürülən təşəbbüslər və həyata keçirilən layihələr barədə danışan Prezident İlham Əliyev bunun, eyni zamanda, beynəlxalq əməkdaşlığa da töhfə verdiyini, ölkəmizin artıq multikulturalizm və mədəniyyətlərarası dialoq sahəsində bir mərkəzə çevrildiyini vurğulayıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələyə toxunan dövlətimizin başçısı Azərbaycanın bu münaqişənin sülh və danışıqlar yolu ilə ədalətli həlli istiqamətində səylərini əsirgəmədiyini, Ermənistan tərəfinin isə danışıqlar prosesinin uzadılmasında maraqlı olduğunu deyib.

# Müasir standartlara uyğun yeni məktəb binaları istifadəyə verilib

Sentyabrın 11-də Səbail rayonunun 20-ci Yaşayış sahəsindəki 162 nömrəli tam orta məktəbin binası yenidənqurmadan sonra istifadəyə verilib. Məktəbin binasında yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə təmir və yenidənqurma işləri ilə bağlı məlumat verilib. Bildirilib ki, təhsil ocağı 1917-ci ildə təsis olunub və elə həmin ildən bu binada fəaliyyətə başlayıb. Məktəbin binasında indiyədək əsaslı təmir işləri aparılmayıb. Təhsil ocağının 41 sinif otağından və müxtəlif fənn kabinetlərindən ibarət üçmərtəbəli binasında yenidənqurma işləri qısa zamanda və müasir standartlara uyğun olaraq yüksək keyfiyyətlə həyata keçirilib. Məktəbdə tədrisin müasir səviyyədə qurulması üçün hər cür şərait yaradılıb, lazımi avadanlıqla tam təchiz olunub.

Dövlətimizin başçısı məktəbdə yaradılan «Eko sinif»lə də tanış olub. Belə siniflərin yaradılmasında məqsəd şagirdləri ekoloji cəhətdən maarifləndirmək, onların ətraf mühitin qorunması işində məsuliyyət hisslərini artırmaqdan ibarətdir. 162 nömrəli məktəbdə tədris ikinövbəli rejimdə aparılır. Burada Azərbaycan və rus bölmələrində 1400-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur.

Prezidenti İlham Əliyev Bakının Səbail rayonunun Badamdar qəsəbəsindəki 239 nömrəli tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə də tanış olub. Bildirilib ki, məktəbdə 53 sinif, 2 informatika otağı, fizika, kimya, biologiya laboratoriyaları, idman və akt zalları, hərbi otaq və kitabxana var. Təhsil ocağında, həmçinin, «Sağlam təhsil» və tibb otaqları da yaradılıb. Sinif otaqlarının hamısı zəruri tədris vəsaitləri ilə təchiz edilib. Hazırda məktəbdə 1180 şagird təhsil alır. Təhsil müəssisəsində şagirdlərin idmanla məşğul olmaları üçün hərtərəfli şərait yaradılıb. Təmir işləri çərçivəsində idman zalı və idman meydançası da yüksək səviyyədə yenidən qurulub.

## BU NÖMRƏMİZDƏ

MÜASİR MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏR BALACA FİDANLARIN İXTİYARINDA... 2

DÖVLƏT QEYDİYYATI MÜASİR DÖVRÜN TƏLƏBLƏRİNƏ UYĞUNLAŞDIRILIR 3

ÖDƏNİŞ KARTLARI NAĞDSIZ ƏMƏLİYYATLAR ÜÇÜN ƏSAS VASİTƏLƏRDƏNDİR 4

PEŞƏ FƏALİYYƏTİNİN ÜMUMİ ƏSASLARI TƏLİMLƏRLƏ MÖHKƏMLƏNDİRİLİR 5

# Müasir məktəbəqədər müəssisələr balaca fidanların ixtiyarında...

**Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir edilən «Qərənfil» körpələr evi-uşaq bağçası azyaşlı sakinlərini qəbul etməyə hazırdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sentyabrın 11-də paytaxtın Nəsimi rayonunda yerləşən bu körpələr evi-uşaq bağçasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. Bildirilib ki, bağça 1968-ci ildən fəaliyyət göstərir. 2007-2008-ci illərdə körpələr evi-uşaq bağçasının binasında cari təmir işləri aparılsa da məktəbəqədər təhsil müəssisəsinin əsaslı təmirə ehtiyacı var idi. Burada bu ilin fevral ayında başlanılan təmir nəticəsində uşaq tərbiyə müəssisəsində lazımi şərait yaradılıb.**



İkimərtəbəli körpələr evi-uşaq bağçası 12 qrupdan ibarətdir. Bu qrupların hər biri 3 otaq olmaqla lazımi inventarla təchiz edilib. Bütün mebel dəstləri və avadanlıq yenisi ilə əvəz olunub. 225 uşaq yerlik müəssisə azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin edir. Körpələr evi-uşaq bağçasında balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq, həmçinin onların bacarıq və istedadlarını aşkara çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Üçkorpuslu məktəbəqədər təhsil müəssisəsində müxtəlif yaş qrupları üçün məşğələ və yataq otaqları, idman və musiqi zalları, yeməkxana yaradılıb.

2014-cü ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı zamanı Fondun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyətin monitorinqinin nəticələri açıqlanıb və ölkədə yeni bağçaların inşasına ehtiyacın olduğu müəyyənləşib. Nəsimi rayonunda əsaslı təmir edilən «Qərənfil» körpələr evi-uşaq bağçası bu istiqamətdə atılan addımlardan biridir. Uşaqların maraqları nəzərə alınaraq bağçanın gözoxşayan həyəti, xüsusi istirahət guşələri var. Burada da yenidənqurma işləri aparılıb, müasir uşaq əyləncə qurğuları quraşdırılıb.

Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verilib ki, uşaqların yol hərəkəti qaydalarına yiyələnmələri üçün xüsusi guşə yaradılıb. Bundan başqa, uşaq müəssisəsinin ətrafındakı ərazidə də abadlıq işləri görülüb.

Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində əsaslı şəkildə təmir edilərək yenidən qurulan 105 nömrəli körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə də tanış olub. Bildirilib ki, 1985-ci ildə inşa edilmiş bu müəssisə istifadəyə verildiyi vaxtdan heç vaxt təmir olunmayıb. Sonradan uşaq bağçasının bir hissəsində məcburi köçkünlər yerləşdiyindən müəssisədə ümumilikdə 60 uşaq olmaqla 4 qrup fəaliyyət göstərib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş «2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın tədbirlər planının icrası ilə əlaqədar uşaq bağçasında məskunlaşmış məcburi köçkün ailələri Mehdiabad qəsəbəsində salınmış yeni yaşayış massivinə köçürüldükdən sonra burada əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. İndi uşaq bağçası 230 uşaq yerlik olmaqla 12 qrupla fəaliyyətə başlayıb. Bütün otaqlar zəruri avadanlıq və havalandırma sistemi ilə təchiz olunub.

Ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi hər zaman dövlətin diqqət mərkəzindədir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunması ilə bağlı layihələri uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.

Körpələr evi-uşaq bağçasının ərazisi abadlaşdırılıb, həyətyanı sahədə attraksionlar quraşdırılıb.

# Büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin yanvar-avqust ayları ərzində dövlət büdcəsinə 4 milyard 671 milyon 367,3 min manat məbləğində vəsaitin ödənilməsi təmin edilərək, Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 100,1 faiz əməl olunub.

# Rəsmi məşğulluq sosial hüquqların reallaşdırılmasının şərti kimi...

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Beynəlxalq Əmək Təşkilatının (BƏT) birgə təşkilatçılığı ilə rəsmi məşğulluğun sosial hüquqların reallaşdırılmasına təsiri mövzusunda konfrans keçirilib. Tədbirdə Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, millət vəkili Səttar Mehbalıyev, Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev, BƏT-in Məşğulluq siyasəti departamentinin direktoru xanım Azita Berar Avad və sektor müdiri Frederik Lapeyre, hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri və beynəlxalq ekspertlər iştirak ediblər.

Konfransda çıxış edən S.Müslümov bildirib ki, Azərbaycanda innovativ iqtisadiyyatın formalaşdırılması, əmək məhsuldarlığının artırılması və əhalinin sosial rifahının yüksəldilməsi ölkədə həyata keçirilən uğurlu dövlət siyasətinin strateji hədəflərini təşkil edir. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər nəzərə alınmaqla reallaşdırılan islahatlar nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri arasında yer alıb. Son 10 il ərzində ölkəmizdə ümumi daxili məhsul 3 dəfədən çox artıb, 1 milyon 600 mindən artıq yeni iş yeri yaradılıb, əhalinin gəlirləri 5,2 dəfə, minimum əməkhaqqı 3,5 dəfə və orta aylıq nominal əməkhaqqı 3,8 dəfə artıb, işsizlik səviyyəsi 5 faiz səviyyəsində saxlanılıb.

**Qeyri-rəsmi əmək münasibətləri əmək məhsuldarlığının artmasına, rəqabətqabiliyyətli məhsul istehsalına maneə olmaqla işəgötürənlərin iqtisadi mənafelərinə də ciddi zərbə vurur**

Bu gün qeyri-rəsmi sektorun həm əhalinin məşğulluğuna, həm də bütövlükdə ölkələrin iqtisadiyyatına ciddi təsir göstərməklə əmək bazarının müstəqil seqmentinə çevrildiyini vurğulayan nazir bildirib ki, qeyri-rəsmi məşğulluğun dünya iqtisadiyyatında payının getdikcə artması bu məsələyə hökumətlərin, sosial tərəfdaşların, beynəlxalq təşkilatların və tədqiqatçıların diqqətini çəkdiyi üçün bu sahədə yeni innovativ yanaşmaların müəyyənləşdirilməsini zəruri edir: «Dünya Bankı və BMT-nin İnkişaf Proqramı tərəfindən aparılan tədqiqatlar göstərir ki, son dövrlərdə, əksər ölkələrdə milli sərvətin strukturunda nəzərəçarpacaq dəyişikliklər baş verir. Bu, özünü iqtisadiyyatda aksentin orta hesabla hər ölkənin ümumi sərvətinin 16 faizini təşkil edən fiziki kapitaldan ümumi sərvətin 64 faizini təşkil edən insan kapitalına yönəldilməsində büruzə verir. Məhz bunun üçün də əmək münasibətlərinin rəsmiləşdirilməsi, vətəndaşların əmək və sosial hüquqlarının qorunması məsələsinə, bu sahədə mövcud olan problemlərin həllinə insan inkişafı kontekstində və BƏT tərəfindən 21-ci əsrin əvvəllərində irəli sürülmüş Layiqli Əmək Konsepsiyası prizması altında baxılması, dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycan üçün də olduqca əhəmiyyətlidir».

Qeyd edilib ki, əmək bazarında rəsmiləşdirilməmiş əmək münasibətlərinin mövcudluğu milli qanunvericilikdə dəqiq müəyyən edilmiş hüquq pozuntusu olaraq, ölkədə əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə mənfi təsir göstərir, layiqli əməyin dəstəklənməsi və nəticə etibarilə əmək məhsuldarlığının yüksəldilməsi üçün çətinliklər yaradır. Azərbaycan dövləti sosial tərəfdaşları, vətəndaş cəmiyyətinin nümayəndələrini və elmi tədqiqatçıları cəlb edərək, problemin tezliklə aradan qaldırılması üçün birgə səylərin səfərbər olunması istiqamətində zəruri addımlar atır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli sərəncamı ilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası və qurumun Katibliyi yaradılıb.

Vurğulanıb ki, dünya tədqiqatçıları tərəfindən özüməşğulluğun qeyri-rəsmi məşğulluğu yaradan əsas sektor kimi qiymətləndirilməsinə baxmayaraq, onun hüquqi prosedurlar çərçivəsində səmərəli təşkili əmək bazarının inkişafı baxımından əmək qabiliyyətli şəxslərin müstəqil surətdə özünü işlə təmin edilməsinə yönəldilən ən vacib tədbirlərdən biridir. Tədricən ünvanlı yardım sistemindən özüməşğulluq sisteminə keçid əmək qabiliyyətli aztəminatlı vətəndaşlar arasında ələbaxımlılığın qarşısını alacaq, onlarda sahibkarlıq fəaliyyətini stimullaşdıracaq, biznesə və qeyri-rəsmilikdən rəsmi iqtisadi münasibətlərə maraqlarını artıracaqdır.

Ölkədə həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlərdən bəhs edən Baş nazirin müavini Əli Əhmədov əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsinin və qanuni mənafelərinin qorunmasının, işçilərin sosial müdafiəsinin gücləndirilməsinin bu siyasətin mühüm tərkib hissəsi olduğunu vurğulayıb: «Hər bir işçi işəgötürən tərəfindən əmək münasibətlərinə cəlb olunarkən, ilk növbədə, bu münasibətlərin rəsmiləşdirilməsi təmin edilməlidir. Əks halda, qeyri-formal məşğulluq halı yaranır ki, bu da işçinin əmək və ümumən sosial hüquqlarının kobud şəkildə pozulmasına, o cümlədən onun gələcəkdə pensiya hüququndan məhrum olmasına, işəgötürənin isə işçi qarşısında qanunvericilikdə nəzərdə tutulmuş öhdəliklərdən, digər tərəfdən vergi, sosial və digər məcburi ödənişlərdən yayınmasına şərait yaradır». Ə.Əhmədov pensiya qanunvericiliyində edilmiş son dəyişikliklərin, eyni zamanda «İşsizlikdən sığorta haqqında» Qanunun qəbul olunmasının, digər mütərəqqi cəhətləri ilə yanaşı, əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün stimullaşdırıcı rol oynadığını bildirib.

S.Mehbalıyev əmək bazarında inkişaf meyillərinə zidd olan qeyri-formal əməyə qarşı mübarizənin AHİK-in əsas fəaliyyət istiqamətlərindən biri olduğunu bildirib. O, qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidin təmin olunması prosesində həmkarlar təşkilatlarının sosial tərəfdaşlıq müstəvisində gördüyü işləri diqqətə çatdırıb.

M.Musayev qeyri-rəsmi əmək münasibətlərinin əmək məhsuldarlığının artmasına, rəqabətqabiliyyətli məhsul istehsalına maneə olmaqla işəgötürənlərin iqtisadi mənafelərinə də ciddi zərbə vurduğunu önə çəkib. O, sahibkarlarla aparılan işlərdə bu mövzunun həmişə diqqətdə saxlandığını qeyd edib.

Rəsmi məşğulluğun layiqli əməyin başlıca təminat forması olduğunu diqqətə çatdıran xanım A.B.Avad əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi istiqamətində Azərbaycanda aparılan fəal dövlət siyasətinin BƏT tərəfindən rəğbətlə qarşılandığını, ölkəmizdə bu sahədə görülən işlərə təşkilatın həmişə yaxından dəstək vermək əzmində olduğunu bildirib.

Konfransda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini M.Kərimli məşğulluğun rəsmiləşdirilməsinə keçidi təşviq etmək üçün Azərbaycanda aparılan siyasət, bu sahədə tənzimləyici hüquqi baza, fəaliyyət mexanizmləri, həyata keçirilən tədbirlər barədə təqdimatla çıxış edib. Təqdimatda verilmiş məlumatlar əsasında müzakirələr aparılıb. Daha sonra xanım A.B.Avad qeyri-rəsmi məşğulluq hallarının aradan qaldırılması və rəsmi məşğulluğa keçidin asanlaşdırılması üçün rəhbər prinsipləri və siyasi təlimatları diqqətə çatdırıb.

Tədbirdə BƏT-in mütəxəssisləri - Frederik Lapeyre tərəfindən məşğulluğun rəsmiləşdirilməsində müsbət təcrübələr, Fərid Heqazi tərəfindən müəssisələrin yaradılmasında uğurlu iş təcrübələri və sosial dialoqun rolu, habelə AHİK və ASK nümayəndələri tərəfindən qeyri-rəsmi məşğulluqdan rəsmi məşğulluğa keçid, sosial dialoq və konsensus quruculuğu üzrə Azərbaycan təcrübəsi barədə təqdimatlar edilib.

**Fəxriyyə İKRAMQIZI**

# Vergilər Nazirliyində kollegiya iclası keçirilib

Sentyabrın 9-da Vergilər Nazirliyində dövlət büdcəsinin proqnoz gəlirlərinin icrası və nazirliyin qarşısında duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

Kollegiyanın sədri, Azərbaycan Respublikasının vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov iclasda çıxış edərək 2017-ci ildə ölkə iqtisadiyyatında müşahidə olunan müsbət dinamikanı vurğulayıb, bunun Azərbaycan iqtisadiyyatında davamlı inkişafın təmin olunması istiqamətində dövlət siyasətinin müvəffəqiyyətlə həyata keçirildiyini təsdiq etdiyini bildirib.

Qeyd olunub ki, cari ilin əvvəlində vergi qanunvericiliyində və bir sıra digər qanunvericilik aktlarında edilmiş dəyişikliklər dövlət büdcəsinə vergi daxilolmalarının həcminə də müsbət təsir göstərib və büdcə proqnozları icra olunub. Vergilər naziri, bununla yanaşı, büdcə gəlirlərinin artırılmasının davamlılığının və sabitliyinin təmin olunması üçün mövcud vergi potensialından maksimum yararlanmağın vacibliyini diqqətə çatdırıb.

Kollegiya iclasında əsas məruzə ilə çıxış edən büdcə proqnozlarının icrası üzrə nazirin müşaviri, Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentinin baş direktoru vəzifəsini icra edən Habil Məmmədov iqtisadiyyatın ayrı-ayrı sektorları və tədiyyə növləri üzrə vergi daxilolmalarının cari vəziyyəti və vergi orqanlarının informasiya məlumat bazaları əsasında hazırlanmış təhlillər barədə məlumat verib. Bu məqsədlə cari ilin sentyabr ayı və sonrakı 3 ay üçün Tədbirlər Planının ilkin layihəsinin hazırlandığı qeyd edilib və planın əsas müddəaları kollegiya üzvlərinin nəzərinə çatdırıb. Bildirilib ki, Tədbirlər Planı 2 hissədən ibarətdir: 2017-ci ilin son 4 ayı üçün dövlət büdcəsinin proqnoz gəlirlərinin icrası, eləcə də həmin dövrdə vergi inzibatçılığı ilə bağlı görülməli işlər.

Potensial vergi gəlirlərinin artırılması üçün borclu vergi ödəyicilərindən daxilolmaların təmin edilməsinin zəruriliyi qeyd edilib, səyyar vergi yoxlamaları ilə aşkarlanmış nöqsanları növbəti hesabat dövrlərində aradan qaldırmayan vergi ödəyicilərinin müəyyən olunması və yayındırılmış vergilərin bərpa edilməsi üçün tədbirlərin görülməsinin vacibliyi vurğulanıb. Kollegiya üzvlərinin nəzərinə çatdırılıb ki, aparılmış təhlillər ayrı-ayrı fəaliyyət sahələri üzrə vergidənyayınma hallarının hələ də mövcud olduğunu göstərir və belə sahələrdə vergi nəzarətinin artırılmasına və inzibatçılığın təkmilləşdirilməsinə ehtiyac vardır.

İclasda Tədbirlər Planı ətraflı müzakirə edilib, hər bir struktur vahidi üzrə nəzərdə tutulan konkret vəzifələr barədə fikir mübadiləsi aparılıb.

Vergilər naziri Fazil Məmmədov ölkə başçısının tapşırıqlarını, qanunvericiliyə edilmiş son dəyişiklikləri nəzərə alaraq, vergi orqanlarının fəaliyyətinin düzgün qurulması sahəsində atılacaq növbəti addımın mütərəqqi üsullardan istifadə etməklə vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə ödənilməsi, real vergitutma bazasının düzgün müəyyənləşdirilərək ödəmə qabiliyyətli vergi ödəyiciləri üzrə borcların alınmasına dair işlərin sürətləndirilməsi, vergi yoxlamalarının tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi, nağd hesablaşmalar aparan vergi ödəyiciləri üzrə vergidənyayınma hallarının təhlil edilərək qanunamüvafiq tədbirlərin görülməsi, vergi sahəsində həyata keçirilən inzibatçılıq tədbirlərinin səmərəliliyinin artırılması olduğunu bildirib.

Nazir vergi ödəyicilərinə xidmət strukturlarının fəaliyyətinin, vergi uçotunun dəqiqləşdirilməsi və şəffaflaşdırılması istiqamətində aparılan işlərin və qanunsuz sahibkarlıq fəaliyyətinə nəzarətin daha da gücləndirilməsinin, fəaliyyət sahələri üzrə nəzarət mexanizmlərinin təkmilləşdirilməsinin zəruriliyini vurğulayıb.

Sonda F.Məmmədov vətəndaş məmnunluğunun təmin edilməsinin vergi orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindən olduğunu xüsusi qeyd edərək, vergi orqanlarının işinin müasir tələblərə cavab verən səviyyədə qurulması, cari ilin sonunadək nazirliyin bütün struktur vahidlərinin və bölmələrinin mövcud potensialının qarşıya qoyulmuş vəzifələrin icrasına səfərbər edilməsi ilə bağlı konkret tapşırıqlar verib.

Kollegiyanın qərarı ilə «2017-ci ilin sentyabr ayı və növbəti 3 ay üçün Vergilər Nazirliyinin qarşısında duran vəzifələrlə bağlı Tədbirlər Planı» təsdiq edilib.

# Almaniyalı investorlar qrupu ilə görüş

Sentyabrın 7-də Bakı Fond Birjasının (BFB) əməkdaşları ilə Almaniyanı təmsil edən investorlar qrupu üzvlərinin görüşü keçirilib. BFB-nin Beynəlxalq Əlaqələr və Korporativ Kommunikasiyalar Qrupundan bildiriblər ki, görüşdə qurumun biznesin inkişafı qrupunun rəhbəri Abdulla İsayev Azərbaycanın qiymətli kağızlar bazarının ticarət arxitekturası, səhm və istiqraz, korporativ və dövlət qiymətli kağızları ilə aparılan əməliyyatlar barədə danışıb, yerli bazarda xarici investorlar üçün yaradılan imkanlar, eləcə də onların marağına səbəb olacaq kapital bazarı alətləri barədə ətraflı məlumat verib. Sonda mövzu ilə bağlı müzakirələr aparılıb, qonaqların sualları cavablandırılıb.

Qeyd edək ki, qadınlardan ibarət olan «DAGOBERTA» investorlar qrupu 2000-ci ildə Almaniyada yaradılıb. Qrupun yaradılmasında əsas məqsəd maliyyə sahəsində savad və biliklərin artırılması, kapital bazarında investisiya imkanlarının təhlili və təşviqi, eləcə də maliyyə bazarlarında peşəkar bacarıqların yüksəldilməsinə dəstək göstərməkdən ibarətdir. Əsasən müxtəlif ixtisaslar üzrə fəaliyyət göstərən qrupu 65 üzv təmsil edir.

# Dövlət qeydiyyatı müasir dövrün tələblərinə uyğunlaşdırılır



**Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə elektron qaydada həyata keçirilməsi bu sahədə köklü dəyişikliklərə səbəb olmuş, sahibkarların işini əhəmiyyətli dərəcədə asanlaşdırmışdır. Nazirliyin Milli gəlirlər departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin direktoru Samir Seyidəhmədliyə ünvanladığımız suallar bu sahədə son yeniliklər, həyata keçirilən islahatlarla bağlıdır.**

***- Samir müəllim, zaman keçdikcə hər bir sahədə dəyişikliyə, təkmilləşməyə zərurət yaranır. Bəs hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində hansı yeniliklər baş verir?***

- İlk növbədə qeyd edim ki, Vergilər Nazirliyinin daim diqqət mərkəzində saxladığı məsələlərdən biri dövlət qeydiyyatı sahəsində işlərin daim təkmilləşdirilməsi, vergi ödəyicilərinin işinin asanlaşdırılmasıdır. Bu istiqamətdə atılan addımlar içərisində vergi ödəyicisi kimi yenicə fəaliyyətə başlayan təhsil müəssisələrinin qeydiyyat prosesinin asanlaşdırılmasını vurğulamaq istərdim. Azərbaycan qanunvericiliyində edilmiş son dəyişikliklərə əsasən, təhsil müəssisələrinə münasibətdə hüquqi şəxsin dövlət qeydiyyatına alınması Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilməyə başlamışdır.

Əvvəllər təhsil müəssisələrinin dövlət qeydiyyatı Ədliyyə Nazirliyi tərəfindən aparılırdı, bu isə həmin müəssisələrinin «bir pəncərə» prinsipi ilə qeydiyyata alınmasının qarşısını alırdı. Qanunvericilikdə dəyişiklikdən sonra təhsil sahəsində fəaliyyət göstərmək arzusunda olan sahibkarlar «bir pəncərə»prinsipinin üstünlüklərindən istifadə edə biləcəklər.

Bundan əlavə, hüquqi şəxslərin rahat fəaliyyətini təmin etməklə bağlı zəruri hesab edilən məsələlərdən biri də «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə edilən 14 aprel 2017-ci il tarixli əlavələrlə əlaqədardır. Bu əlavələrə əsasən, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin aktları ilə təsis sənədlərində və qeydə alınmış faktlarda edilmiş dəyişikliklər, həmçinin dövlət reyestrində olan şəxslərin şəxsiyyətini təsdiq edən sənədlərdəki məlumatlarda aparılan dəyişikliklər Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətindən onlayn rejimdə əldə edilərək 5 iş gün müddətində birbaşa Vergilər Nazirliyi tərəfindən qeydiyyata alınacaq. Bu, o deməkdir ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 405-ci maddəsinin tələbinə görə tətbiq edilməli olan inzibati cərimənin əhatə dairəsi vergi ödəyicilərinin xeyrinə azalmışdır: artıq həmin şəxslər qrupu inzibati cərimələrin təqtbiq edilməsinə səbəb olacaq hüquqi şəxslərin reyestr məlumatlarında baş vermiş məlumat dəyişikliyinin qanunvericilikdə müəyyən edilmiş müddətdə dövlət reyestrini aparan orqana təqdim edilməsi vəzifəsindən azad olmuşlar.

***- Vergi sahəsində elektron xidmətlərin sayının artması «bir pəncərə» sisteminə öz təsirini necə göstərir?***

- Bu gün Vergilər Nazirliyi dövlət qurumları arasında ən çox elektron xidmət təqdim edən qurumdur və qeydiyyat sahəsində bir çox xidmətlər, o cümlədən ilkin qeydiyyat tam elektronlaşdırılmışdır. Yeni elektron xidmətlərin sayəsində vətəndaşlar əlavə vaxt itkisindən və xərclərdən azad olmuşlar.

***- Qeydiyyat prosesi zamanı vətəndaşların işini asanlaşdırmaq üçün vergi əməkdaşları tərəfindən hansı metodiki yardımlar göstərilir?***

- Vergilər Nazirliyi bu məsələdə də ciddi təkmilləşdirmə işləri həyata keçirmişdir. Qeydiyyatla bağlı inzibati reqlamentlər, qeydiyyat ərizə formaları və onların doldurulma qaydaları, təşkilati-hüquqi formasından asılı olaraq kommersiya qurumlarının nizamnamə, qərar formaları və s. hazırlanıb, hər kəsin istifadə edə bilməsi üçün Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilib. Sahibkarların kommersiya hüquqi şəxs yaratmaq üçün hazırladıqları hüquqi sənədlərin qeydiyyat orqanına gəlmədən yoxlanılması üçün saytda idarənin hüquqşunaslarının elektron ünvanları yerləşdirilmişdir. Bundan başqa, vergi əməkdaşları iş günü ərzində xidməti telefon və elektron poçt vasitəsilə müraciət etmiş şəxsləri maraqlandıran bütün suallara ətraflı cavab verirlər.

Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin Qeydiyyat və Qeydiyyatın təhlili şöbələrində hüquqi şəxsin adının unikallığının yoxlanılması üçün vətəndaşların özlərinin sərbəst istifadə etməsinə imkan verən xüsusi məlumat köşkləri quraşdırılıb. Qeydiyyat zalının divarında quraşdırılmış stendlərdə müraciət ərizələrinin nümunəvi formaları və onların doldurulma qaydaları, müxtəlif vergi növləri barədə bukletlər yerləşdirilib.

***- Statistik mənzərə necə görünür? «Bir pəncərə» prinsipi ilə nə qədər vergi ödəyicisi dövlət qeydiyyatına alınıb?***

- Dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə qeydiyyata alınmasına başlanmasından ötən müddət ərzində 36.254 hüquqi şəxs dövlət qeydiyyatına alınıb. İllər üzrə göstəricilər belədir: 2008-ci il - 4036, 2009-cu il - 3286, 2010-cu il - 2466, 2011-ci il - 2803, 2012-ci il - 2962, 2013-cü il - 4113, 2014-cü il - 4208, 2015-ci il - 3174, 2016-cı il - 4924. Bu ilin 8 ayı ərzində isə 4282 hüquqi şəxs dövlət qeydiyyatına alınıb.

***- Hüquqi şəxslər hansı təşkilatihüquqi formalara üstünlük verirlər?***

- Ölkəmizdə fəaliyyət göstərən hüquqi şəxslər əsasən məhdud məsuliyyətli cəmiyyət təşkilati-hüquqi formasında yaradılmışdır: 2008-ci ildə onların 93,7%-i, 2009-cu ildə 93,5%-i, 2010-cu ildə 91,7%-i, 2011-ci ildə 91,5% -i, 2012-ci ildə 92,9% -i, 2013-cü ildə 93,6% -i, 2014-cü ildə 92,2%-i, 2015-ci ildə 93,1%-i, 2016-cı ildə 96% -i, bu ilin 8 ayı ərzində isə 97,3%-i məhdud məsuliyyətli cəmiyyət təşkilati-hüquqi formasında yaradılmışdır.




Xarici investisiyal h quqi ›xsl rin d on
layn qeydiyyat n n apar lmas ›istiqa m
tind haz rl q i l ri gedir. ›Layih haz r
lanaraq Az rbaycan h kum tin t qdim
edilmi dir. Bu add m n at lmas imkan
ver c k ki, kommersiya h quqi xsl rin
d vl t qeydiyyat n n tamamil elektron
qaydada apar lmas m mk n olsun.




***- Yerli və xarici investisiyalı müəssisələrin say bölgüsü necədir? Müşahidələrinizə əsasən, hansı xarici ölkələrin investorları Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa maraq göstərirlər?***

- Hazırda say bölgüsü baxımdan yerli investisiyalı müəssisələr üstünlük təşkil edir. Lakin son dövrlər xarici investisiyalı müəssisələrin qeydiyyatında da yüksək dinamika özünü göstərir. Hüquqi şəxslərin dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə qeydiyyata alınmasına başlanmasından ötən müddət ərzində dövlət qeydiyyatına alınmış 36.254 hüquqi şəxsdən 5470-i xarici investisiyalı müəssisələrdir ki, bu da cəmi qeydiyyata alınan müəssisələrin 15,1%-ni təşkil edir. Son 8 ay ərzində qeydiyyata alınan 558 xarici investisiyalı müəssisələrdən 147-si (26,3%) Türkiyə Respublikasının, 81-i (14,5%) İran İslam Respublikasının, 52-si (9,3%) Pakistan İslam Respublikasının, 39-u (7%) Rusiya Federasiyasının, 29-u (5,2%) Hindistan Respublikasının, 25-i (4,5%) Ukraynanın, 25-i (4,5%) Gürcüstan Respublikasının, 160-ı isə (29%) digər xarici ölkələrin investorlarıdır.

***- Beynəlxalq qurumlar Azərbaycandakı iqtisadi prosesləri diqqətlə izləyirlər və onların hesabatlarında ölkəmizin vergi sisteminin mövqeyinin irəliləyişinin şahidi oluruq. Bu tendensiyanın saxlanılması üçün hansı işlər görülür?***

- İlk növbədə vurğulamaq istərdim ki, hazırda «Doing Business»in son hesabatına görə Azərbaycanın mövqeyi 5-ci pillədə qərarlaşıb. Bu yerin qorunub saxlanması və daha yuxarı pillələrə addımlamaq istiqamətində daim yeni təkliflər irəli sürülür və qabaqcıl təcrübə öyrənilir.

Bildiyimiz kimi, kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı yalnız yerli investisiyalı hüquqi şəxslər üçün mümkündür. Artıq xarici investisiyalı hüquqi şəxslərin də onlayn qeydiyyatının aparılması istiqamətində hazırlıq işləri gedir. Layihə hazırlanaraq Azərbaycan hökumətinə təqdim edilmişdir. Bu addımın atılması imkan verəcək ki, kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının tamamilə elektron qaydada aparılması mümkün olsun. Nəzərə alsaq ki, kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı elektron qaydada 1 gün, kağız daşıyıcıda isə 2 gün ərzində həyata keçirilir, bu layihə reallaşandan - qeydiyyat tam elektronlaşandan sonra qeydiyyat prosesinin müddətinin daha da azalmasına nail olunacaqdır ki, bu da beynəlxalq hesabatlarda və reytinq sıralamalarında Azərbaycanın mövqeyinin daha da irəliləməsinə səbəb olacaq.

***- Hazırda hansı layihələr üzərində iş gedir?***

- Vergilər nazirinin müvafiq əmri ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının «Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklərin edilməsi barədə təkliflər» lahiyəsinə rəy bildirilməsi üçün komissiya yaradılmışdır. Bu komissiya tərəfindən rəy hazırlanaraq Prezident Administrasiyasına təqdim edilmişdir.

Lahiyədə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin «Şəxslər» bölməsində dəyişikliklərin edilməsi, bir sıra yeni institutların yaradılması, habelə mövcud institutlarla bağlı hüquq münasibətlərinin fərqli qaydada tənzimlənməsi nəzərdə tutulur. Hesab edirəm ki, həmin lahiyə qəbul olunduqdan sonra hüquqi şəxslərin dövlət qeydiyyatını tənzimləyən bir çox normativ hüquqi aktlarda dəyişikliklərin edilməsi zərurəti yaranacaqdır.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**

# Maliyyə islahatları xərclərin optimallaşdırılmasını tələb edir

**Yaxın günlərdə 2018-ci ilin dövlət büdcəsi layihəsinin hökumətə təqdim ediləcəyi gözlənilir. Layihənin detalları məlum olmasa da, gələn il xərclərdə qənaətin davam etdirilməsi, maliyyə vəsaitlərinin səmərəliliyinə nəzarətin artırılması istisna deyil. Hökumət büdcədən ayrılan vəsaitlərin istifadəsinə maksimum dərəcədə nəzarət etməyi qarşıya məqsəd qoyub.**

***Büdcə xərclərinə nəzarətlə bağlı yeni metodlar tətbiq ediləcək***

Maliyyə naziri Samir Şərifov bildirib ki, qarşıdakı ildə dövlətin xərclərlə bağlı sərt siyasəti davam etdiriləcək. Bir sıra xərclərin normallaşdırılması, maliyyə inzibatçılığının gücləndirilməsi və daha məsuliyyətli yanaşma dövlət vəsaitlərinin istifadəsinə rasional yanaşmanın əsas prinsipləri olacaq. Sosial proqramların, mühüm beynəlxalq və dövlət layihələrinin maliyyələşdirilməsində, xarici öhdəliklərin tam şəkildə həyata keçirilməsində maliyyə sıxıntısına yol verilməyəcək. Bununla belə, dövlət investisiyaları ilə bağlı bəzi sahələrdə xərclərin məhdudlaşdırılması istisna deyil. Rayonlara büdcədən ayrılan dotasiyaların azaldılması, öz gəlirləri hesabına özünütəminetmə mexanizminin formalaşdırılması nəzərdə tutulur. Xərclərin optimallaşdırılması sahəsində koordinasiya funksiyasını yerinə yetirən qurumlardan olan Hesablama Palatası da maliyyə inzibatçılığının təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlər görməyi planlaşdırır. Palatanın 2018-2020-ci illəri əhatə edən yeni Strateji İnkişaf Planında hesabatlılıq və şəffaflığı təşviq etmək məqsədilə beynəlxalq standartlara uyğun nəzarət mexanizmlərinin yaradılması, dövlət büdcəsi vəsaitlərinin səmərəli və qənaətli istifadə potensiallarının və makrosəviyyədə təsirlərinin müəyyən edilməsi, yeni audit metodlarının tətbiqi, nəzarət tədbirlərinin əhatəsinin genişləndirilməsi nəzərdə tutulub.

***Hökumət qənaət rejimini davam etdirəcək***

Maliyyə sahəsi üzrə mütəxəssis Orxan Məmmədovun fikrincə, dünyada müşahidə edilən maliyyə böhranı qlobal iqtisadi sistemə sıx şəkildə inteqrasiya olmuş Azərbaycan üçün də təsirsiz ötüşmür. Dövlət son iki ildə büdcə xərclərinin azaldılması və qənaət siyasəti yürüdür. Bununla yanaşı, əsas prioritetlərdən biri xərclərə nəzarət və optimallaşdırmanın təmin edilməsidir: «Azərbaycanda büdcənin hazırlanması mexanizminin ortamüddətli xərclər çərçivəsinə uyğun olaraq təkmilləşdirilməsi nəzərdə tutulur və bu siyasətin əsas məqsədi iqtisadi siyasəti, uzunmüddətli iqtisadi, həmçinin strateji hədəfləri müəyyənləşdirməkdir. Bunun üçün fiskal intizamın yaradılması, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırılması, büdcə resurslarının sektorlararası və sektordaxili düzgün bölüşdürülməsi qarşıya məqsəd qoyulub. Yürüdülən maliyyə-büdcə siyasətinin əsas istiqamətlərini büdcədən maliyyələşən təşkilatlar üzrə adambaşına maliyyələşdirmə prinsipinə keçmək, yerli dövlət proqramları və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə uzlaşdırılması üçün tədbirlər görmək, xərclərin investisiya və sosial yönümlülüyünə üstünlük verməklə sosial siyasəti gücləndirmək, büdcə xərclərinin son nəticəyə əsaslanan məqsədli proqramlar əsasında tərtibini davam etdirmək kimi strateji məqsədlər təşkil edir. 2018-ci və sonrakı üç il ərzində xərclərin mərhələlərlə orta və uzunmüddətli dövrləri əhatə edən proqramlar əsasında proqnozlaşdırılmasının genişləndirilməsi, xərclərin strukturunun funksional səviyyədə təkmilləşdirilməsi, dövlət zəmanəti ilə iqtisadiyyata cəlb olunan və büdcədə dövlət investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin əhəmiyyətinə görə bölgüsü, eləcə də həmin vəsaitlərə nəzarətin artırılması nəzərdə tutulub.

***İctimai nəzarət artırılmalıdır***

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, Açıq Hökumətin Təşviqinə dair hökumət-vətəndaş cəmiyyəti dialoqu platformasının koordinatoru Əliməmməd Nuriyev maliyyə vəsaitlərinin xərclənməsinə ictimai nəzarəti mühüm amil hesab edir. Azərbaycan hökuməti «Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı» çərçivəsində büdcə vəsaitlərinin istifadəsinə ictimai nəzarətin təşkili ilə bağlı öhdəlik götürüb. Bu sahədə vətəndaş cəmiyyəti institutları da iştirak edir: «Düşünürəm ki, bu tendensiya davam etdirilməlidir. Vətəndaş cəmiyyəti qurumlarının maliyyə nəzarətini həyata keçirən orqanlarla birgə koordinasiyalı fəaliyyəti, maliyyə və büdcə hesabatları barədə vətəndaşların məlumatlandırılmasına şərait yaradılması maliyyə hesabatlılığının və şəffaflığın artırılmasına öz töhfəsini verə bilər».

***Nağdsız hesablaşmalar korrupsiya hallarının qarşısını alır***

Ekspertlər xərclərin optimallaşdırılmasında nağdsız iqtisadiyyatın qurulmasının mühüm rolunun olduğu qənaətindədir. İqtisadçı Radil Fətullayevin fikrincə, «Nağdsız hesablaşmalar haqqında» Qanunun qəbul olunması və nağd ödənişlərin məhdudlaşdırılması maliyyə əməliyyatlarının şəffaflaşmasına, dövlət büdcəsindən ayrılan vəsaitlərin ünvanlılığına və təyinatı üzrə yönəldilməsinə səbəb olmaqdadır. Bütün əməliyyatların bank vasitəsilə köçürmə yolu ilə həyata keçirilməsi xərclərin şişirdilməsinin qarşısının alınmasında təsirli vasitələrdən biridir. Dövlət büdcəsindən vəsaitlərin ayrılması, satınalmaların həyata keçirilməsi zamanı bəzi hallarda şirkətlərin hesablarına köçən vəsaitin nağdlaşdırılması yeyinti hallarına səbəb olur. Bu, gizli iqtisadiyyatın ayaq açmasına, vəsaitlərin ölkədən çıxarılmasına şərait yaradır. Ona görə də nağdsız hesablaşmalar dövlət sektorunda korrupsiyanın məhdudlaşdırılmasında, şəffaflığın təmin edilməsində əhəmiyyətli rol oynayır.

**Bütün əməliyyatların bank vasitəsilə köçürmə yolu ilə həyata keçirilməsi xərclərin şişirdilməsinin qarşısının alınmasında təsirli vasitələrdən biridir**

***Vergi siyasəti büdcənin gəlir potensialını artırır***

Xərclərin optimallaşdırılması ilə paralael olaraq, dövlət büdcənin qeyri-neft bölməsi üzrə gəlir potensialını artırmağa, gömrük və vergi daxilolmalarının yüksəldilməsinə xüsusi diqqət yetirəcək. Fiskal intizamın yaradılması, şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də vergi sisteminin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatları davam etdirmək nəzərdə tutulur.

Vergilər Nazirliyinin büdcə-fiskal siyasət ilə əlaqədar prioritetləri bu sahələrlə bağlıdır:

- kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi;
- biznesin asanlaşdırılması;
- beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması;
- səmərəli vergi sisteminin təşviq edilməsi;
- xarici investisiya strategiyasının həyata keçirilməsi;
- statistika infrastrukturunun təkmilləşdirilməsi.

Bu istiqamətdə sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil ediləcək. İslahatlar çərçivəsində sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əməletməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçiriləcək. Effektiv stimullar vasitəsilə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin təşviqi, birbaşa xarici investisiyaların cəlb olunması nəzərdə tutulur. Vergi dərəcələrinin optimallaşdırılması, vergidən azadolmaların və vergi güzəştlərinin minimuma endirilməsi yolu ilə vergitutma bazasının genişləndirilməsi, xərclərin süni şəkildə artırılması (transfer qiymətləndirmə) hallarının aradan qaldırılması, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin gücləndirilməsi, elektron qaimə-fakturanın və nağdsız ödənişlərin genişləndirilməsi də bu siyasətin tərkib hissəsidir.

**E.CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



**Samirə Musayeva**
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### Sənədləşmə

***Mallar agent vasitəsilə təqdim edildikdə, sənədləşmə necə aparılmalıdır?***

Vergi Məcəlləsinin (VM) 172.1-ci maddəsinə görə digər şəxsin (vəkalət verən) agenti (vəkalət alan) olan şəxs tərəfindən mallar göndərilməsi, işlər görülməsi və ya xidmətlərin göstərilməsi vəkalət verənin həyata keçirdiyi əməliyyat sayılır.

Vergitutma bazası onun digər şəxslərə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə göstərdiyi xidmətlərin dəyəri, vergi tutulan əməliyyatların vaxtı bu xidmətlərin faktiki göstərildiyi vaxt, vergi tutulan əməliyyatların dəyəri isə onun digər şəxsdən almalı olduğu (aldığı) haqdır (mükafatdır) (VM, maddə 172.4.4).

**Qeyd olunanlara əsasən:**

Vergi qanunvericiliyinə uyğun olaraq, elektron qaimə-faktura hüquqi şəxslərə və fərdi sahibkarlara malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxslər tərəfindən verilir. Malların komissiyaya verilməsi malların təqdim edilməsi hesab olunmadığından, komissiya qaydasında satış məqsədilə verilmiş mallara görə agentə qaimə-faktura və ya elektron qaimə-faktura təqdim edilmir. Komissiyaya qəbul edilmiş mallar «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir və malların komissiyaya qəbul olunması ilə bağlı tərəflər arasında müqavilə bağlanılır.

Malların komissiya qaydasında satışı zamanı agent tərəfindən vəkalət verənə malların satışı üzrə göstərdiyi xidmətlərə görə qaimə-faktura və ya elektron qaimə-faktura verilir.

# Ödəniş kartları nağdsız əməliyyatlar üçün əsas vasitələrdəndir

Nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azaldılmasında əhəmiyyətli rol oynayır. Nağdsız hesablaşmalar ödəniş kartları, bank köçürmələri, çeklər və s. kimi müxtəlif növ vasitələrlə həyata keçirilir. Ödəniş kartları malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, öz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçürülməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə olunan bir ödəmə aləti hesab edilir. İnkişaf etmiş ölkələrdə alış-verişin təxminən 85 faizi ödəniş kartı vasitəsilə aparılır. Dünyada 1.5 mlrd. yaxın ödəniş kartı mövcuddur. Azərbaycanda isə hazırnda təxminən 4.5 mln. ödəniş kartından istifadə olunur.

***Ödəniş kartlarının üstünlükləri***

Ödəniş kartlarının çoxsaylı imkanlarına baxmayaraq, Azərbaycanda onlardan əksər hallarda hesabda olan vəsaitin bankomat vasitəsilə nağdlaşdırılması üçün istifadə edilir. Əslində isə ödəniş kartları bir sıra unikal üstünlüklərə malikdir:

- ödəniş kartındakı vəsaitin daha rahat və təhlükəsiz olması;
- ticarət mərkəzlərində rahat alış-veriş edilməsi;
- səyahət zamanı nağd pulla bağlı ehtiyacların ödənilməsi;
- gömrük sərhədini keçərkən ödəniş kartında olan pul vəsaitini deklarasiya etmək zərurətinin olmaması;
- ödəniş kartı vasitəsilə konvertasiya əməliyyatı əsasında istənilən valyutada əməliyyatların həyata keçirilməsi və ya nağd pul vəsaitinin əldə edilməsi;
- hesabda pul olmadıqda tez bir zamanda hesabın bank vasitəsilə artırılması və s.

Bundan başqa, vaxta qənaət baxımından da ödəniş kartları xüsusi əhəmiyyətə malikdir. Məsələn, fərqli ödənişlərin eyni vaxta evdən və ya iş yerindən ayrılmadan yerinə yetirilməsi, vergilərin, rüsumların və digər büdcə ödənişlərinin, kommunal xərclərin (işıq, qaz, su, telefon və s.) internet vasitəsilə ödənilməsi, elektron ödənişlərin qısa müddətdə şəxsi vərəqədə əks olunması, mehmanxana nömrələrinin öncədən sifariş edilməsi, avia biletlərin, digər mal və xidmətlərin internet vasitəsilə alışı və s. vaxt itirmədən həyata keçirilməsi insanların rahatlığının təmin olunmasına xidmət edir.

Şəxsi büdcənin səmərəli planlaşdırılması baxımından da ödəniş kartları müstəsna əhəmiyyətə malikdir. Kart sahiblərinin hesablarına pul vəsaitinin daxil olması və xərclənməsi barədə məlumat müntəzəm qaydada onların mobil telefonlarına göndərilir.

***Təhlükəsizlik təmin olunur***

Dünyada ödəniş kartları ilə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi üçün ciddi tədbirlər görülür və bu məsələdə kart sahiblərinin diqqətli olmaları vacibdir. Kart sahiblərinin fırıldaqla üzləşməmələri üçün aşağıdakı şərtlərə əməl etmələri məsləhət görülür:

- həyata keçirilən əməliyyatlar üzrə hesablaşma çeklərinin emitent tərəfindən müəyyən olunmuş müddət ərzində saxlanılması təmin edilməlidir;
- telefon vasitəsilə, təsərrüfat subyektlərində və ya digər yerlərdə hesab nömrəsi digərlərinin eşidə biləcəyi yüksək səslə bildirilməməlidir;
- emitent bankın adından elektron formada göndərilən məktublarda ödəniş kartı ilə bağlı məlumatların (hesab nömrəsi, PIN-kod və s.) təqdim edilməsi tələbinə heç bir halda cavab verilməməlidir;
- emitentlə qarşılıqlı əlaqə saxlamaq üçün yalnız emitentin özünün təqdim etdiyi əlaqə vasitələrindən (mobil və stasionar telefon nömrələrindən, interaktiv veb sayt/portallardan, adi və elektron poçtdan və s.) istifadə olunmalıdır.




- ödəniş kartı kənar şəxslərin istifadəsinə verilməməlidir;
- PIN-kod ödəniş kartı üzərində və ya digər asanlıqla əldə oluna biləcək yerdə qeyd edilməməlidir, yadda saxlanılmalıdır;

> Şəxsi büdcənin səmərəli planlaşdırılması baxımından da ödəniş kartları müstəsna əhəmiyyətə malikdir

**RƏŞAD**

# Qeyri-neft sektoruna verilən dövlət dəstəyi öz nəticələrini verir

Azərbaycanda iqtisadiyyatda qeyri-neft sektorundakı mövcud potensialın hərəkətə gətirilməsi, bu sahədə dinamik inkişafın təmin edilməsi üçün istehsalın stimullaşdırılması, sahibkarlıq fəaliyyətinə daha münbit şəraitin yaradılması, kənd təsərrüfatında ölkəmizə valyuta gətirə biləcək sahələrin inkşafı üçün təxirəsalınmaz addımlar atılır. Aparılan iqtisadi islahatlar nəticəsində son illər mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Lənkəranda keçirilən çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində dövlət başçısı qeyri-neft sektorunu, xüsusən də kənd təsərrüfatı və emal sənayesini ölkənin gələcək inkişafında əsas prioritet sahələr kimi göstərib, bununla bağlı hökumətin qarşısında ciddi tələblərin qoyulduğunu, görüləsi işlərin çox olduğunu bəyan edib: «Son illər ərzində sahibkarlara dövlət tərəfindən iki milyard manatdan çox güzəştli kreditlər verilib və əlbəttə, sahibkarlar da öz vəsaitlərini qoyublar. Bu təşəbbüs nəticəsində ölkə iqtisadiyyatının real sektoruna ümumilikdə təqribən 4 milyard manat, bəlkə də ondan da çox vəsait qoyulubdur. Kreditlər əsasən regionlara, kənd təsərrüfatına, emal sənayesinə ayrılıbdır. Metodiki tövsiyələr verilir. Mən sahibkarlarla mütəmadi olaraq görüşürəm, onlara öz dəstəyimi verirəm. Bilirsiniz ki, yoxlamaların da sayı kəskin şəkildə aşağı düşüb. Yəni biz şərait yaradırıq ki, sahibkarlar qurub-yaratsınlar, yeni iş yerləri, yeni sənaye sahələri yaratsınlar və Azərbaycanda istehsal, ixrac artsın, idxal azalsın».

Ölkəmizin davamlı sosial-iqtisadi inkişafının təmin olunmasında, makroiqtisadi sabitliyin qorunmasında iqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən olan regionların inkişafı strategiyasının müstəsna əhəmiyyəti var. Bu baxımdan, cari ilin əvvəlindən «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində mühüm işlər görülüb, bir sıra uğurlu layihələr həyata keçirilib, regionların inkişafına bütün mənbələr hesabına kifayət qədər vəsait yönəldilib.

Millət vəkili Tahir Mirkişiyev iqtisadi proseslərin yerli müəssisələrin rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının dinamik inkişafını və insan kapitalından səmərəli istifadəni gerçəkləşdirmək istiqamətində islahatların daha da dərinləşdirilməsini zəruri hesab etdiyini bildirib: «Aparılan iqtisadi islahatlar, həyata keçirilən sənayeləşmə siyasəti, qeyri-neft sektoruna verilən dövlət dəstəyi nəticəsiz qalmır. Dövlətin sahibkarlara davamlı dəstəyi, kənd təsərrüfatlarına subsidiyaların, güzəştli kreditlərin verilməsində əsas məqsəd sahibkarların daha əlverişli maliyyə mənbələrinə çıxışını təmin etməklə yanaşı, onların özlərini də investisiya qoymağa stimullaşdırmaqdan ibarətdir. Son illərin təcrübəsi göstərdi ki, sahibkarlar özləri də dövlətin bu dəstəyini yüksək qiymətləndirərək şəxsi vəsaitləri hesabına əlavə investisiya yatırımları edirlər. Bu, dövlət-sahibkar münasibətlərinin daha etimaddoğurucu mərhələsi deməkdir. Eyni zamanda, ölkə Prezidentinin mütəmadi olaraq sahibkarlarla görüşü, müəssisələrdəki şəraitlə yerində tanışlıq, onların çətinliklərinə diqqətlə yanaşma sahibkarlığın inkişafına və son nəticədə istehsalın və ixracın artımına gətirib çıxarıb».

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin yanvar-iyul aylarında ölkədə 37 milyard 645,4 milyon manatlıq ümumi daxili məhsul istehsal edilib, əvvəlki ilin müvafiq dövrünə nisbətən iqtisadiyyatın neft bölməsində istehsal olunmuş əlavə dəyər 6,9 faiz azalıb, qeyri-neft bölməsində isə 2,2 faiz artıb.**

Ümumi daxili məhsulun 41,1 faizi sənayedə, 10,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində, 8,9 faizi tikintidə, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrində, 15,6 faizi digər sahələrdə istehsal olunub, məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,1 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 3875,6 manata bərabər olub.

**FƏXRİYYƏ**

# Vergi ödəyicilərinə geniş çeşiddə elektron xidmətlər göstərilir

> «Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması» elektron xidməti vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülmə işlərinin yerinə yetirilməsini əhatə edir.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin Qarşılıqlı əlaqələrin təhlili şöbəsinin rəhbəri Emil Əzizli bildirmişdir ki, xidmət tam avtomatlaşdırılmışdır və vergi ödəyiciləri tərəfindən vergi orqanlarından alınmış istifadəçi kodu, parol və şifrədən, yaxud gücləndirilmiş elektron imzadan istifadə etməklə, öz ƏDV sub-uçot hesabı üzrə real vaxt rejimində müvafiq əməliyyatlar aparılır: «Əgər köçürmə əməliyyatı əlavə dəyər vergisinin depozit hesabı daxilində aparılırsa (yəni 1 vergi ödəyicisi öz ƏDV sub-uçot hesabından digər vergi ödəyicisinin ƏDV sub-uçot hesabına köçürürsə), köçürmə əməliyyatlarının aparılması istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq yerinə yetirilir. Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödəniş iş günü saat ll:30-dək proqram təminatında təsdiq edildikdə, həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi həmin gün, saat ll:30-dan sonra və ya qeyri-iş günündə proqram təminatında təsdiq edildikdə isə həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi növbəti iş günündə həyata keçirilir. Vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti və dövlət büdcəsinə köçürülməsi kimi əməliyyatlar həyata keçirilir».

E.Əzizli qeyd etmişdir ki, interaktiv xidmətin istifadəçiləri Vergilər Nazirliyi tərəfindən verilmiş istifadəçi kodu, şifrə, parol və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə sistemə daxil olaraq ƏDV depozit hesabı üzrə köçürmə əməliyyatlarının aparılmasını həyata keçirə bilərlər: «Vergi ödəyiciləri İnternet Vergi İdarəsi Portalından (www.e-taxes.gov.az) istifadə edərək ƏDV-nin sub-uçot hesabından digər vergi ödəyicilərinin sub-uçot hesablarına, dövlət büdcəsinə ödənişləri, idxala görə Dövlət Gömrük Komitəsinə köçürmələri yerinə yetirirlər. Alınmış elektron vergi hesab-fakturasına əsasən, alıcı vergi ödəyicisi öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini gücləndirilmiş elektron imzadan istifadə etməklə satıcı vergi ödəyicisinin ƏDV sub-uçot hesabına köçürür».

E.Əzizlinin sözlərinə görə, əlavə dəyər vergisi ödəyicisi olmayan, istifadəçi kodu, parol və ya şifrəsi səhv olan və gücləndirilmiş e-imzaya malik olmayan vergi ödəyicilərinə elektron xidmətin göstərilməsindən imtina edilir və sistem tərəfindən bu barədə istifadəçinin ekranına müvafiq mesajlar verilir. Vergi ödəyicisinin dövlət büdcəsinə borcu olduğu halda da digər sub-uçot hesaba ödəniş aparılmasından imtina edilir.

«Köçürmə əməliyyatlarını aparmaq üçün «ƏDV-nin depozit hesabı/Köçürmə əməliyyatlarının aparılması» menyusunu seçmək lazımdır. Əməliyyatı alıcı vergi ödəyicisi gücləndirilmiş elektron imza vasitəsilə aparır. Köçürmə əməliyyatları ekranına daxil olduqda ödəyən müştərinin sub-uçot hesabının qalığı, naməlum sub-uçot hesabının qalığı, ƏDV borcu kimi məlumatları sistem tərəfindən avtomatik olaraq ekranda görüntülənir. Bu ekran vasitəsilə aşağıdakı əməliyyatlar aparıla bilər:

- Digər sub-uçot hesaba köçürmə;
- Büdcəyə ödəniş;
- Naməlumdan digər sub-uçot hesaba köçürmə;
- Naməlumdan idxala görə ƏDV köçürməsi;
- Naməlumdan büdcəyə ödəniş;
- İdxala görə ƏDV köçürməsi.

Digər sub-uçot hesaba köçürmə əməliyyatı əsasən qarşılıqlı əməliyyatlar zamanı alınmış elektron vergi hesab-fakturasına əsasən, alıcı vergi ödəyicisinin öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini satıcı vergi ödəyicisinin ƏDV sub-uçot hesabına köçürülməsi məqsədilə aparılır. Bu əməliyyat növünü icra etmək üçün alıcı vergi ödəyicisi «Digər sub-uçot hesaba köçürmə» bəndini seçir və satıcının VÖEN-ni, ödənişin məbləğini, ödənişin təyinatını daxil edib gücləndirilmiş elektron imzadan istifadə etməklə «İmzala və göndər» düyməsini sıxır. Bu əməliyyatdan sonra köçürülən məbləğ alıcı vergi ödəyicisinin sub-hesabından satıcı vergi ödəyicisinin sub-hesabına köçürülür.

Büdcəyə ödəniş əməliyyatı vasitəsilə vergi ödəyicisi ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişi həyata keçirir. Bunun üçün əməliyyat növündən «Büdcəyə ödəniş əməliyyatı» bəndini, alanın VÖEN hissəsində olan siyahıdan həmin ödəyicinin qeydiyyatda olduğu müvafiq xəzinə orqanının məlumatlarını seçməli və ödənişin məbləği, ödənişin təyinatı rekvizitlərini daxil edib gücləndirilmiş elektron imzadan istifadə etməklə «İmzala və göndər» düyməsini sıxmaq lazımdır. Bu prosesdən sonra daxil edilmiş məbləğ vergi ödəyicisinin sub-ucot hesabından büdcəyə köçürülür. Əlavə dəyər vergisi üzrə büdcəyə olan borclar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə ödənilmədiyi təqdirdə, bu məbləğ vergi ödəyicisinin sub-uçot hesabından avtomatik olaraq büdcəyə köçürülür.

Qarşılıqlı əməliyyatlarda sub-uçot hesabdan köçürmələr zamanı alanın (ödənilən tərəfin) VÖEN-i düzgün göstərilmədiyi və alan (ödənilən tərəf) ƏDV ödəyicisi olmadığı hallarda, köçürülən məbləğ ödəyən müştərinin naməlum sub-uçot hesabına qayıdır. Bu əməliyyat növü yuxarıda qeyd olunan müəyyən səbəblərdən ödəyənin naməlum sub-uçot hesabına qayıtmış köçürmələrin yenidən aidiyyəti ödəyiciyə köçürülməsi üçün istifadə edilir.

Bunun üçün əməliyyat növündən «Naməlum sub-uçot hesabdan digər sub-uçot hesaba köçürmə» bəndi qeyd edilir. Sonra Alanın VÖEN-i, Naməlum ödənişin məbləği, Ödənişin təyinatı daxil edilir və gücləndirilmiş elektron imzadan istifadə etməklə «İmzala və göndər» düyməsi sıxılır. Nəticədə naməlum sub-uçot hesabdakı məbləğ alanın (ödənilən tərəfin) sub-uçot hesabına köçürülür.

Naməlum sub-uçot hesaba daxil olmuş vəsaiti eyni zamanda büdcə ilə hesablaşmalar üçün və ya idxala görə ƏDV ödənişi üçün istifadə etmək olar. Bunun üçün əməliyyat növündən «Naməlum sub-uçot hesabdan büdcəyə köçürmə» bəndi qeyd edilir. Sonra alanın VÖEN-i, ödənişin məbləği və ödənişin təyinatı daxil edilir və gücləndirilmiş elektron imzadan istifadə etməklə «İmzala və göndər» düyməsi sıxılır. Nəticədə naməlum sub-uçot hesabdakı məbləğ büdcəyə ödənilir. İdxala görə ƏDV köçürmə əməliyyat növü ilə ƏDV sub-uçot hesabından idxala görə ƏDV köçürməsi ödənişi gücləndirilmiş elektron imza vasitəsilə həyata keçirilir.

Əvəzləşdirilən ƏDV-nin məbləği vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturalarında nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində aparılan əməliyyatlarda ödənilən vergi məbləği sayılır.

Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.

**F. İKRAMQIZI**

# Peşə fəaliyyətinin ümumi əsasları təlimlərlə möhkəmləndirilir

Vergilər Nazirliyinin Tədris Mərkəzində iyulun 31-dən avqustun 31-dək dövlət vergi orqanlarının stajçı əməkdaşları üçün ənənəvi təhsil sistemi tətbiq olunmaqla «Peşə fəaliyyətinin ümumi əsasları» modulu üzrə təlimlər təşkil edilmişdir. 44 nəfər stajçı əməkdaşın cəlb olunduğu təlimlər zamanı Vergi Məcəlləsinin tətbiqinin hüquqi aspektləri, hüquqi və fiziki şəxslərin vergiyə cəlb olunması, peşə fəaliyyətinin sahə xüsusiyyətləri (vergi inzibatçılığı), peşə fəaliyyətinin ümumi mövzuları və mühasibat uçotunun əsasları ilə əlaqədar mövzular tədris olunmuşdur.

Ümumilikdə təlimlərə 179 tədris saatı ayrılmışdır. Kursun yekunu üzrə AVİS-də real vaxt rejimində test üsulu ilə imtahan keçirilmişdir. Vergilər Nazirliyinin İnsan resursları departamentinin baş direktorunun müavini Kamran Məmişovun sözlərinə görə, imtahanın nəticələri qənaətbəxş olmuşdur: «Bu, çox sevindirici haldır. İmtahanda Vergilər Nazirliyinə müsabiqə yolu ilə qəbul edilmiş stajçı əməkdaşlar iştirak edirdi. Nazirliyin Müsabiqə Komissiyasının və İnsan resursları departamentinin gərgin əməyi nəticəsində yüksək bilik və bacarıqlara malik olan namizədlər seçilmiş, Tədris Mərkəzində keçirilən təlimlər nəticəsində yüksək nailiyyətlər əldə olunmuşdur. Həmin əməkdaşların staj müddəti bitdikdən sonra müstəqil fəaliyyətlərində fərqlənəcəkləri və gələcəkdə yüksək vəzifələr tutacaqları şübhəsizdir».

Tədris Mərkəzinin rəisi Əli Həsənov bildirib ki, bu il vergi orqanlarına işə qəbul olunan əməkdaşların hamısı peşə hazırlığı kursunda iştirak etmişdir: «Təqdirəlayiq haldır ki, işə yeni qəbul olunan əməkdaşlar real vaxt rejimində keçirilmiş imtahanlarda daha yüksək nəticələr göstərmiş və 17 nəfər əla qiymət almışdır.

# İslahatlar bəhrəsini verir

**Prezident İlham Əliyevin sədrliyi ilə Lənkəranda keçirilmiş respublika müşavirəsində dövlətimizin başçısı bildirib ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafına yatırılan sərmayələr öz mühüm bəhrəsini verir. 2017-ci ilin əvvəlindən bəri iqtisadiyyatın qeyri-neft bölmələrinə yatırılan investisiyaların həcmi 4 milyard manatı ötüb, bu isə həmin sahələrdə istehsalın və ixracın artmasını stimullaşdırıb. Qeyri-neft istehsalının artması ölkənin ixrac potensialının möhkəmlənməsinə əlverişli şərait yaradıb. «2017-ci ilin ötən 7 ayında ticarət dövriyyəmizin müsbət saldosu əhəmiyyətli dərəcədə artıbdır. Yəni biz daha çox ixrac edirik, nəinki idxal», - deyən dövlət başçısı ixracın həcminin və çeşidinin yüksəlməsi üçün aparılan məqsədyönlü siyasətin mühüm əhəmiyyətinə toxunub.**

***İxracı stimullaşdıran dəstək mexanizmləri yaradılıb***

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, son bir ildə iqtisadiyyatın strukturunda mühüm dəyişikliklərin baş verməsi milli istehsalın artmasına, əsasən də qeyri-neft təmayüllü malların həcminin yüksəlməsinə səbəb olub: «Dövlət başçısının cənub bölgəsində keçirdiyi müşavirədə qeyd etdiyi kimi, qeyri-neft sektorunun inkişafına dəstək məqsədilə dövlət tərəfindən infrastruktur və əlavə istehsal sahələrinin yaradılması üçün maliyyə təminatı yaxşılaşdırılıb. Dövlət investisiyaları hesabına rəqabətqabiliyyətli məhsul istehsalının əsas şərtlərindən olan suvarma, yol-nəqliyyat, etibarlı elektrik enerjisi və digər infrastruktur layihələri həyata keçirilib və bu istiqamətdə işlər davam etdirilir. Təkcə bu il 150 min hektardan çox torpaq əkin dövriyyəsinə cəlb edilib. Yüksək məhsuldarlığa nail olmaq məqsədilə suvarma suyu və elektrik enerjisi ilə təminat layihələrinə 250 milyon manatdan çox dövlət vəsaiti yönəldilib. Bununla yanaşı, qeyri-neft sahələrinin potensialının genişləndirilməsi məqsədilə müxtəlif dövlət dəstəyi mexanizmləri həyata keçirilməkdədir. İqtisadi rayonların hər birini əhatə edən müasir innovativ layihələrin gerçəkləşməsi qeyri-neft sektorunda istehsal və ixrac potensialını daha da artıracaq».

***Valyuta ehtiyatlarının artması maliyyə sabitliyini möhkəmləndirir***

A.Hüseynov qeyd edib ki, ixracın təşviqi, o cümlədən geriödəmə dəstəyinin verilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi, eləcə də yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin bir hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi və ixracyönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin tətbiqi ixracın artmasında mühüm rol oynayıb: «Dövlət son bir ildə ixracı stimullaşdırmaq məqsədilə investisiya təşviqi siyasəti yürüdür. İndiyədək verilmiş investisiya təşviqi sənədi 150 layihəni əhatə edir və bu layihələrin dəyəri 1,4 milyard manat təşkil edir. Bu, qeyri-neft məhsullarına əsaslanan sabit ixrac potensialının formalaşmasında mühüm faktorlardandır. Bundan başqa, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı xarici ölkələrə ixrac missiyaları təşkil olunur, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinin artırılması, yerli şirkətlərin xaricdə sertifikat və patent alması işləri genişlənir».

Millər vəkili hesab edir ki, ixrac siyasətinin güclənməsinə yönələn tədbirlər tədiyyə balansında da özünü göstərməkdədir: «Cari ilin 7 ayı ərzində valyuta ehtiyatlarımızda 3 milyard 600 milyon dollar səviyyəsində artım olub. Bu, böyük göstəricidir və son 2 ildə strateji valyuta rezervlərinin dinamikasına baxdıqda ən yüksək temp hesab edilə bilər. Əvvəlki illərdə ölkəmizin valyuta ehtiyatlarının azalması baş verirdisə, artıq bu istiqamətdə əks proses gedir və strateji valyuta ehtiyatları artır. Hazırda valyuta ehtiyatlarımız 40 milyard dolları ötüb. Bu, çox mühüm haldır. Strateji valyuta ehtiyatlarının artımı tendensiyası ölkəmizin güclü iqtisadi təhlükəsizliyə malik olduğunun göstəricisidir. Mövcud situasiya manatın tədiyyə aləti kimi möhkəmlənməsinə, idxal və ixracatçılar üçün əlverişli biznesin təşkilinə, daxili bazarda qiymətlərin sabitləşməsinə güclü zəmin yaradır».

***Regionlarda iqtisadi fəallıq artır***

Milli Məclisin deputatı aparılan səmərəli siyasətin regionların inkişafına stimul verdiyini, yeni iş yerlərinin yaradılmasına səbəb olduğunu qeyd edir: «2017-ci ilin ötən 7 ayında 140 minə yaxın iş yeri yaradılıb ki, onun da təxminən 120 mini daimidir. Yeni iş yerlərinin 23%-i paytaxt Bakının, 77%-i isə regionların payına düşür. Bölgələrdə yaradılmış yeni iş yerləri azad biznesin və sahibkarlığın inkişafının göstəricisidir və biznes mühitinin təkmilləşdirilməsi xüsusilə də regionlarda çalışan sahibkarların öz istehsal sahələrini artırmaları, yeni müəssisələr yaratmaları üçün əlverişli fürsət deməkdir. Ümumiyyətlə, Azərbaycanın iqtisadi rayonlarının cari ilin birinci yarısı üzrə reytinqi onu söyləməyə əsas verir ki, 2 il əvvəl bəzi rayonlarda nəzərə çarpan iqtisadi zəifləmə dayanıb və bərpa prosesləri başlayıb, iqtisadi fəallıq artıb. Hazırda regionlardakı qeyri-neft potensialının səfərbər edilərək əlavə dəyərin yaradılmasına cəlb olunması və vergi daxilolmalarında qeyri-neft sektorunun payının daha da artırılması istiqamətində məqsədyönlü siyasət yürüdülməkdədir. Ölkəmizin müxtəlif bölgələrində yaradılan sənaye məhəllələri, iri fermer təsərrüfatları və aqroparkların yaradılması məhsul istehsalının həcminin artırılmasına, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə öz töhfəsini verəcək».

***Əlverişli vergi rejimi biznes mühitinin təkmiləşdirilməsinə təkan verir***

Həyata keçirilən sənayeləşmə siyasəti və qeyri-neft sektoruna verilən dövlət dəstəyi tədbirləri sırasında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Aydın Hüseynovun sözlərinə görə, son illər dövlət regionların sosial-iqtisadi inkişafına diqqəti daha da artırıb və səmərəli vergi mühitinin yaradılması bu sahədə əhəmiyyətli dəyişikliklərin baş verməsini şərtləndirir: «2017-ci ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər artıq öz müsbət nəticələrini göstərməkdədir. Vergi islahatları sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına və sahibkarların fəaliyyətinin genişləndirilərək vergi yükünün aşağı düşməsinə, ölkədə daha əlverişli və səmərəli biznes mühitinin təmin edilməsinə, qeyri-neft sektorunun davamlı inkişafına, yeni istehsal və xidmət sahələri yaradılmasına stimul verməkdədir. Ölkədə vergi inzibatçılığının təkmilləşdirilməsi nəticəsində sahibkarlara böyük güzəştlər verilib, uğurlu biznes üçün hər bir şərait yaradılıb. Vergilər Nazirliyi kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət (əmək müqavilələrinin bağlanması, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması) istisna olmaqla, əksər operativ nəzarət tədbirlərini dayandırıb. Ticarət, iaşə və xidmət, tikinti sahəsində çalışan sahibkarlara sadələşdirilmiş vergi rejimində işləmək üçün seçim hüququ verilib. Bu kimi tədbirlər qeyd olunan sahələrdə fəallığın artmasına, yeni sahibkarlıq subyektlərinin yaranmasına öz mühüm təsirini göstərib. Ötən 7 ayın göstəricilərinə əsasən, respublika üzrə yeni yaradılan iş yerlərinin əsas hissəsinin - təxminən 70 mininin (67%) fərdi sahibkarlıq subyektlərinin payına düşməsi kiçik və orta biznes sektorunda aparılan islahatların ümumi nəticəsi hesab oluna bilər».

Regionlardakı qeyri-neft potensialının səfərbər edilərək əlavə dəyərin yaradılmasına cəlb olunması və vergi daxilolmalarında qeyri-neft sektorunun payının daha da artırılması istiqamətində məqsədyönlü siyasət yürüdülür

**Elbrus CƏFƏRLİ**

# DTT-nin İcraiyyə Şurasının sessiyasına Azərbaycan sədrlik edir

Bu günlərdə Çinin Çenqdu şəhərində Birləşmiş Millətlərin Dünya Turizm Təşkilatının (DTT) Baş Assambleyası öz işinə başlayıb. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyindən verilən xəbərə görə, assambleya çərçivəsində təşkilatın İcraiyyə Şurasının 106-cı sessiyası keçirilir.

Şuraya sədrlik edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış edərək, son bir ildə təşkilat tərəfindən həyata keçirilmiş fəaliyyətin vacib istiqamətlərini diqqətə çatdırıb.

Daha sonra DTT-nin baş katibi Taleb Rifai təşkilatın büdcə vəziyyəti, 2016-2017-ci illər üzrə fəaliyyət proqramı və növbəti illər üçün fəaliyyət istiqamətləri barədə məlumat verib. İclas gündəlikdə duran digər vacib məsələlərin müzakirəsi ilə davam edir.

Xatırladırıq ki, tədbirdə Azərbaycanı nümayəndə heyətinin rəhbəri, DTT-nin İcraiyyə Şurasının sədri, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, ölkəmizin İspaniyadakı səfiri, DTT yanında daimi nümayəndəsi, səfir Anar Məhərrəmov, ölkəmizin Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı, Turizm Etikası üzrə işçi qrupunun rəhbəri qismində mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov, nazirliyin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Vasif Eyvazzadə, turizm şöbəsinin əməkdaşı Cavid Abdullayev və Turizm İnformasiya Mərkəzinin direktoru Zakir Əliyev təmsil edir.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin yarımillik monitorinq və qiymətləndirmə hesabatları açıqlanıb.

«EXPO-2017 Astana» beynəlxalq sərgisində Azərbaycan pavilyonu mükafata layiq görülüb.

Azərbaycan Ticarət və Sənaye Palatasının dəstəyi ilə sentyabrın 23-25-də Bakı Expo Mərkəzində ilk dəfə «Shoesstar Caspian ayaqqabı və dəri malları» beynəlxalq sərgisi keçiriləcək.

«Zolotaya Korona» təcili pulköçürmə sistemi tərəfindən banklar arasında martın 15-dən avqustun 31-dək davam edən yarışmada «AtaBank» qalib gəlib.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin rəsmi açılış mərasiminin oktyabrın 28-də keçirilməsi gözlənilir.

Azərbaycan və Ukrayna arasında elektron imzaların qarşılıqlı tanınması layihəsi müzakirə edilir.

# Bank Ombudsmanı kimdir...

*Sentyabrın 5-dən Bank Ombudsmanının rəsmi saytı fəaliyyətə başlayıb. Bu elektron müraciət forması şikayətçilərin daha qısa vaxt ərzində, rahat formada Bank Ombudsmanı ilə elektron əlaqə yaratması üçün nəzərdə tutulub. Sayta Bank Ombudsmanının yaranma tarixi, ombudsmanın vətəndaşa müraciəti, görüləcək işlər haqqında bütün məlumatlar daxil edilir. Burada, həmçinin, nəşrlər, Bank Ombudsmanı sahəsi ilə bağlı xəbərlər, tədbirlər haqqında informasiyaları da əldə etmək olar. Yüksək peşəkarlıqla tərtib olunmuş, həm Azərbaycan dilində, həm də ingiliscə fəaliyyətə başlamış saytda elektron müraciətdən əlavə, suallar e-mail vasitəsilə də ünvanlana bilər.*

Bank Ombudsmanı banklarla onların fiziki şəxs müştəriləri arasında yaranan mübahisələrin araşdırılması üzrə Azərbaycan Banklar Assosiasiyasının nəzdində fəaliyyət göstərən orqandır. Bu qurumun yaradılmasında məqsəd banklar və fiziki şəxslər arasında müqavilələrin bağlanması, dəyişdirilməsi, icrası və ya xitam verilməsi ilə bağlı yaranan hüquqi və mülki mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılmasıdır.

ABA-nın Bank Ombudsmanının məsul katibi Elçin Həsənov bildirib ki, qurum üçün ədalət, qanunun aliliyi, müstəqillik kimi çox müqəddəs olan dəyərlər var. İddia - məbləği maksimum 2000 (iki min) ABŞ dollarının müraciətin daxil olduğu gün Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsinə uyğun olaraq manat və digər valyuta ekvivalentinə bərabər olan bütün növ şikayətlərə baxılır: «Bu zaman mübahisə məhkəmə prosesində və mübahisəni mahiyyəti üzrə həll edən qüvvəyə minmiş məhkəmə aktı olmamalı, mübahisəyə Bank Ombudsmanı tərəfindən bundan əvvəlki dövrdə baxılmamalı, ərizədə qaldırılan məsələnin baş verməsindən və iddia olunan hüquq pozuntusundan iki ildən artıq vaxt keçməməli, barəsində ərizə verilən bank hazırda fəaliyyət göstərməli, həmçinin qaldırılan məsələdə müvafiq qanunvericiliyə uyğun olaraq cinayət və inzibati xəta tərkibi olmamalıdır. Heç bir halda şikayət motivi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmamalıdır».




Bu qurumun yaradılmasında məqsəd banklar və fiziki şəxslər arasında müqavilələrin bağlanması, dəyişdirilməsi, icrası və ya xitam verilməsi ilə bağlı yaranan hüquqi və mülki mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılmasıdır

Elçin Həsənovun sözlərinə görə, Bank Ombudsmanına, vətəndaşlığından asılı olmayaraq, bank ilə müqavilə bağlamış fiziki şəxslər müraciət edə bilərlər: «Mübahisə tərəfi bir tərəfdən bank, digər tərəfdən isə fiziki şəxs və ya onun etibarnamə ilə təmin edilmiş səlahiyyətli nümayəndəsi ola bilər. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və «Azərbaycan Banklar Assosiasiyası»nın üzvü olan, «Bankların müştəriləri - fiziki şəxslərlə əlaqədar mübahisələrin baxılmaq üçün Bank Ombudsmanına verilməsi haqqında Bəyannamə»ni bank tərəfindən imzalanmış bütün banklar mübahisə tərəfi ola bilər».

E.Həsənov qeyd etmişdir ki, əgər fiziki şəxs müştərilər ilə bank arasında yaranan mübahisənin motivi Bank Ombudsmanına müraciət üçün tələblərə uyğundursa, o zaman Bank Ombudsmanına ərizə verməzdən əvvəl bankın müştərisi öz iddialarının (tələblərinin) mahiyyəti göstərilməklə əlaqədar banka şikayət ərizəsi ilə müraciət etməlidir. Şikayəti (ərizəni) alan bank şikayətin (ərizənin) alındığı gündən 30 (otuz) iş günü ərzində müştəriyə şikayətin (ərizənin) mahiyyəti üzrə cavab təqdim edir: «Şikayətin (ərizənin) mahiyyəti üzrə cavab alındığı andan və ya bu qeyd olunan müddət bitdikdən sonrakı 60 (altmış) gün ərzində müştəri Bank Ombudsmanına yazılı ərizə ilə müraciət etmək hüququna malikdir. Bank Ombudsmanına müştəri ilə bank arasında bağlanmış müqavilənin qüvvədə olduğu müddətdə və ya müqavilənin müddəti bitdikdən sonra keçən 2 (iki) il ərzində olan mübahisələrə dair ərizələr təqdim edilməlidir. Yazılı ərizə Bank Ombudsmanına poçt vasitəsi ilə, elektron poçt vasitəsi ilə və ya şəxsən Bank Ombudsmanının ofisinə gəlməklə Bank Ombudsmanının məsul katibinə rəsmi iş günləri və saatlarında təqdim oluna bilər».

Ombudsmana müraciətlə bağlı olaraq, «Bank Ombudsmanının reqlamenti»nin 6.2-ci maddəsində göstərilən sənədlərin surəti əlavə edilməlidir:

- müştərinin şəxsiyyətini təsdiq edən sənəd;
- Bank Ombudsmanına ərizə verməzdən əvvəl öz iddialarının (tələblərinin) mahiyyəti göstərilməklə əlaqədar banka etdiyi şikayətin (ərizənin) surəti və ya məktubun banka göndərilməsinə dair poçt qəbzi və bankın müştəriyə cavab məktubu (əgər varsa);
- müştəri ilə bank arasında bağlanılmış müqavilə;
- bank kredit müqaviləsinə əlavə saziş (əgər varsa);
- müştərinin ödəmə cədvəli;
- bankla müştəri arasında cari tarixə olan borc və gecikmələri haqqında müvafiq bankın arayışı (şikayətin mahiyyəti üzrə).

Şikayətə baxılma müddəti fərqlidir. Mübahisə - tərəfləri Bakı şəhərində olduqda - bir ay, Bakı şəhərindən kənarda olduqda - iki ay, tərəflərdən heç olmazsa biri Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu halda isə mübahisənin araşdırılma müddəti altı aydan çox olmayan müddətdə baxıla bilər. Əgər işin mahiyyəti üzrə qəbul edilmiş qərar icra olunmasa, tərəflərin hər hansı birinin digər tərəfi verilmiş qərarın icra olunmamasına görə məhkəməyə vermək hüququ vardır. Barışıq sazişinin tələblərinin icra olunmaması tərəflər üçün heç bir hüquqi məsuliyyət yaratmır.

**F.İKRAMQIZI**

# Azərbaycan Respublikasının Vergilər Nazirliyi işə qəbulla bağlı MÜSABİQƏ ELAN ETMİŞDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka yalnız aşağıdakı ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar:

1. Hüquqşünaslıq;
2. Beynəlxalq hüquq;
3. Maliyyə;
4. İqtisadiyyat;
5. Statistika;
6. Beynəlxalq iqtisadi münasibətlər;
7. Mühasibat uçotu və audit;
8. Maliyyə və kredit;
9. İqtisadiyyatın tənzimlənməsi;
10. Əməyin iqtisadiyyatı və sosiologiyası;
11. İqtisadi kibernetika;
12. Qiymət və qiymətin əmələ gəlməsi;
13. Xəzinə əməliyyatlarının uçotu;
14. İqtisadi nəzəriyyə;
15. Vergilər və vergitutma;
16. Sığorta işinin təşkili;
17. Milli hesablar sistemi;
18. Qiymətləndirmə (sahələr üzrə);
19. Qiymətli kağızlar;
20. İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarəedilməsi (sahələr üzrə);
21. Aqrar istehsalatın iqtisadiyyatı və idarəedilməsi;
22. Ticarət və istehlak kooperasiyasının iqtisadiyyatı və idarəedilməsi;
23. Gömrük işinin təşkili;
24. İqtisadiyyatın hüquqi tənzimlənməsi;
25. Vergi işinin təşkili və idarə edilməsi;
26. Tətbiqi riyaziyyat;
27. İnformatika;
28. İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi;
29. Maliyyə nəzarəti və audit.

MBA proqamı üzrə yuxarıda qeyd olunan ixtisaslardan fərqli ixtisaslar üzrə təhsil almış namizədlərin ixtisaslarının uyğunluğuna Komissiya tərəfindən baxılaraq qərar verilir.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 30.08.2017-ci il saat 10:00-dan 13.09.2017-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə olunmalıdır. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsi qəbul edildikdən 5 gün ərzində baxılır, ərizə qəbul edilərsə namizədin iş nömrəsi və test imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat göndərilməyən vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi ilə əlaqə saxlamalıdırlar.

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda 012-403-81-35 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Elektron ərizə vermiş namizədlər 18- 20.10.2017-ci il tarixdə (saat 10:00-dan 18:00-a dək) imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 21.10.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 28.08.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdirilmişdir.

**Diqqət!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

## 2017-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Vergilər sentyabr ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin **oktyabr ayının 20-dən** gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin avqust ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Vergilər Nazirliyinin Tədris Mərkəzi vakant vəzifələr üzrə işə qəbul ELAN ETMİŞDİR

**«Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin 1.7-ci bəndinə müvafiq olaraq (müsabiqənin test imtahanı mərhələsindən azad olunmaqla birbaşa müsahibə mərhələsinə qəbul edilərək) Vergilər Nazirliyinin Tədris Mərkəzinin vakant olan vəzifələri üzrə aşağıdakı tələblərə malik olan və həmin vəzifələrə işə qəbul olunmaq istəyən vətəndaşların işə qəbulla bağlı ərizələri elektron sənəd qəbulu dövründə Vergilər Nazirliyinin inzibati binasında (əlbəəl) qəbul edilir:**

**İqtisadiyyat və menecment kafedrasının müəllimi:**

*Namizədlərə tələblər:*

- İqtisadiyyat sahəsində ali təhsil (minimum magistr səviyyəsi);
- Elmi və pedaqoji sahədə minimum 2 il iş stajı;
- İqtisadiyyatın müxtəlif sahələri (mühasibat, bank, maliyyə, vergi və s.) üzrə yüksək səviyyədə nəzəri və praktiki biliklər;
- Təlimlərin aparılması texnologiyası və qaydaları üzrə zəruri biliklər;
- Yüksək səviyyədə nitq və ünsiyyət qurma bacarıqları;
- Müasir təlim metod və alətlərindən istifadə etmə bacarıqları;
- Auditoriyanı idarəetmə bacarığı;
- Təlimin xüsusiyyətindən asılı olaraq MS Windows, MS Office proqramları (xüsusilə Word və PowerPoint) üzrə zəruri biliklər.

**Elmi-tədqiqat bölməsinin elmi işçisi:**

*Namizədlərə tələblər:*

- İqtisadiyyat və ya hüquq sahəsində ali təhsil (minimum magistr səviyyəsi);
- Elmi-tədqiqat sahəsində minimum 2 il iş stajı;
- İqtisadiyyatın müxtəlif sahələri (mühasibat, bank, maliyyə, vergi və s.) üzrə yüksək səviyyədə nəzəri və praktiki biliklər;
- Elmi-tədqiqat işləri aparmaq və müvafiq işləri yerinə yetirmək bacarığı;
- MS Windows, MS Office proqramları (xüsusilə Word və PowerPoint) üzrə zəruri biliklər.

Müsabiqəyə yalnız Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar. Müsabiqə zamanı xarici dil biliklərinə və elmi dərəcəyə malik olan namizədlərə üstünlük veriləcəkdir.

Vergilər Nazirliyinin Tədris Mərkəzi Şamaxı rayonu, Nağaraxana kəndində yerləşir. Tədris Mərkəzinin Əsasnaməsi, vakant vəzifələrin mövcud olduğu kafedranın və bölmənin Əsasnamələri və həmin vəzifələrin təlimatları ilə Vergilər Nazirliyinin Tədris Mərkəzinin internet səhifəsinin (www.tedris.taxes.gov.az) «Normativ sənədlər» bölməsində tanış olmaq olar.

Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html

və www.asxm.gov.az

internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Böyük Britaniya vergilərin minimallaşdırılmasından itirir

Leyboristlər Partiyasının apardığı iqtisadi təhlildə göstərildiyinə görə, son beş il ərzində vergilərin qanuni şəkildə minimallaşdırılması metodlarının tətbiqi sayəsində Böyük Britaniya iqtisadiyyatı 12,8 milyard funt sterlinq vəsaitdən məhrum olmuşdur. Vergi məsləhətçilərinin əməli dövlətə 2010-2011-ci və 2014-2015-ci maliyyə illəri üzrə illik 2,2 milyard funt sterlinq itkiyə başa gəlmişdir.

Vergilərin minimallaşdırılması nəticəsində fiziki şəxslərin və iri korporasiyaların ödəmədikləri ümumi məbləğ 365 məktəbin və ya 21 xəstəxananın dəyəri qədərdir. Ehtimal var ki, əslində, göstərilən rəqəm daha böyük ola bilər, çünki iqtisadi təhlil zamanı Böyük Britaniyanın ratifikasiya etdiyi beynəlxalq vergi sazişləri nəzərə alınmamışdır. Ölkə siyasətçiləri vergilərin minimallaşdırılmasına imkan verən qanun boşluqlarını aradan qaldırmağa və vergitutma sahəsini daha daha da şəffaflaşdırmağa çağırmışlar.

## Yaponiya və Estoniya arasında vergi sazişi imzalanıb

Beynəlxalq ticarət əməliyyyatlarında və sərmayə qoyuluşunda ikiqat vergitutmanın aradan qaldırılması məqsədilə imzalanmış saziş ixrac-idxal əməliyyatlarını, eləcə də investisiya qoyuluşlarını həyata keçirərkən hər iki tərəfin vergi hüquqlarını təsbit edir.

Sazişə uyğun olaraq, dividendlər üçün vergi 10 faiz təşkil edəcək və kapitalın mənşəcə mənsub olduğu dövlətdə ödəniləcək. Altı ay müddətində şirkətin səhmlərinin ən azı 10 faizinə sahib olan vergi ödəyicilərinə sıfır dərəcə tətbiq ediləcək. Royalti vergisi aktivin mənşəyinin mənsub olduğu dövlətdə ümumi 5 faizlik dərəcə ilə ödəniləcək.

Yaponiya ilə Estoniya arasında imzalanmış vergi sazişinin, hər iki tərəf təsdiq etdikdən sonra, 30 gün ərzində qüvvəyə minəcəyi gözlənilir.

## Vergi planlaşdırmasının qadağan edilməsi narazılıqla qarşılanır

İyul ayından Kanada hökuməti vergi planlaşdırmasının geniş yayılmış üç metodunun ləğv edilməsi ilə bağlı məsləhətləşmələrə başlamışdır.

Hökumət belə hesab edir ki, bu metodlar vergi ödəməkdən böyük məbləğlərdə yayınmağa şərait yaradır.

Hökumət zəngin vətəndaşlara məxsus gəlirlərin bir hissəsinin onların ailə üzvlərinin adlarına keçirilməsinin qarşısını almaq niyyətindədir. Çünki gəlirlərin adlarına köçürüldüyü insanların vergi öhədliyi əhəmiyyətli dərəcədə aşağı olur. Bundan əlavə, korporasiyaların öz gəlirlərini bilərəkdən az göstərdiklərinə və gəlirlərin bir hissəsinin yüksək vəzifəli rəhbərlərin adına mükafat olaraq keçirilməsinə də tez-tez rast gəlinir.

Bu sahədə aparılan müzakirələrlə əlaqədar olaraq Kanadanın iri 35 şirkəti ölkənin maliyyə naziri Bill Mornöyə məktub göndərərək qadağanın aradan götürülməsini xahiş etmişdir. Bundan əlavə, sahibkarlar kiçik biznesə ədalətli vergitutmanın təmin edilməsi üçün koalisiya yaratmışlar.

Maliyyə nazirinə ünvanlanmış müraciəti biznes nümayəndələri ilə yanaşı, Ticarət Palatasının, Vergi Ödəyiciləri Federasiyasının, Topdansatış Ticarət Şurasının, Səhiyyə Assosiasiyasının və digər təşkilatların da təmsilçiləri imzalamışlar. Burada əsas arqument kimi vergi təkcə iri korporasiyalara deyil, iş yerlərinin əsas hissəsini təşkil edən kiçik və orta biznesə də ziyan vuracağı göstərilmişdir.

## Vergi inzibatçılığının əsaslı islahatına sərmayə qoyulur

Danimarka Vergilər Nazirliyinin açıqlamasına əsasən, hökumət qarşıdakı bir neçə il ərzində vergi inzibatçılığı üzrə islahatlara 10,5 milyard kron (1,68 milyard ABŞ dolları) məbləğində vəsait sərf edəcək.

Danimarkanın vergi orqanı SKAT geniş vergi inzibatçılığı sahəsində böyük ixtisaslaşma aparılması məqsədilə 2018-ci il iyul ayının 1-dən yeddi idarəetmə şurası ilə əvəz ediləcək. Keçən il parlament vergi orqanına 5 milyard kron (0,8 milyard ABŞ dolları) həcmində əlavə maliyyə ayrılmasını təsdiqləmişdi. Bununla yanaşı, Vergilər Nazirliyinin açıqlamasına əsasən, yeni administrativ sistemin zəruri resurslar ilə dəstəklənə bilməsi üçün 2018-ci ilə dair maliyyə qanunvericiliyində daha 5,5 milyard kron (0,88 milyard ABŞ dolları) vəsait ayrılmışdır.

«Biz tamamilə yeni bir vergi administrasiyası qurarkən keçmişdə buraxdığımız səhvlərin təkrar edilməməsi son dərəcə mühüm əhəmiyyət daşıyır. Ona görə də SKAT-ı əvəz edəcək yeni yeddi ödəniş sistemi qənaət hesabına deyil, investisiyalarla yaradılmalıdır. Hökumət bunu tarixdə ilk iri resurs həcmləri ilə həyata keçirir», - vergilər naziri Karsten Lauritsen bildirmişdir.

Hökumət 2021-ci ilə qədər vergi orqanlarında işləməyə əlavə 1800 əməkdaş götürməyi və yeni informasiya sistemlərinə investisiya qoymağı planlaşdırır. Vergilər Nazirliyinin açıqlamasında göstərilir ki, əlavə sərmayələrin qoyuluşu diqqəti vergilərin böyük məbləğdə ödənilmədiyi sahələr, xüsusilə də əlavə dəyər vergisi üzərində cəmləşdirməyə yardımçı olacaq.

## Vyetnam hava limanı yığımlarının məbləğini artırır



Ölkə rəhbərliyi bu ilin oktyabr ayından hava limanları ilə bağlı yığımları artırmaq barədə qərar qəbul etmişdir. Mülki aviasiya idarəsinin açıqlamasında bildirilmişdir ki, vergi dərəcələrinin artırılması bu sahədə xərcləri nizamlamağa kömək edəcək, xidmətlərin keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq, eləcə də dövlətin aviasiya infrastrukturunun inkişaf etdirilməsinə çəkdiyi xərclərin bir hissəsinin qaytarılmasına imkan verəcək.

Daxili daşımalar üçün hava limanı yığımları Vyetnamın iri aeroportlarında 30 faiz, regional aerodromlarda isə 21 faiz artırılacaq. Hazırda bu yığımlar müvafiq olaraq 3,08 və 2,64 dollar təşkil edir. Sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi və baqajın yoxlanması üçün yığımlar beynəlxalq reyslər üzrə 2 dollar, daxili marşrutlar üçünsə 0,8 dollar artırılacaq. Bundan əlavə, uçuş-enmə zolaqlarından istifadə üçün yığımların da 5 faiz artırılması nəzərdə tutulur. Hökumət, tipindən asılı olaraq hər təyyarə üzrə 30-225 dollar vəsait yığmağı planlaşdırır.

## Virciniya adaları vergi informasiyalarını bölüşür və turizm vergisini artırır

Virciniya adalarının beynəlxalq vergi idarəsi Xorvatiyanın və Polşanın adını vergi informasiyalarının avtomatik mübadilə olunduğu hesabatlı yurisdiksiyaların siyahısına daxil etmişdir. Bu isə o deməkdir ki, Britaniyanın Virciniya adalarının maliyyə müəssisələri Polşadan və Xorvatiyadan olan hesab sahibləri haqqında məlumatları toplayaraq beynəlxalq vergi idarəsinə təqdim etməlidirlər. Beynəlxalq vergi idarəsi isə həmin məlumatları artıq sentyabr ayının 1-dən Polşa və Xorvatiyanın müvafiq orqanlarına ötürür.

Britaniyanın Virciniya adalarının maliyyə müəssisələrinin xarici hesab sahibləri barədə məlumat vermək öhdəliyi, adaların OECD-nin dövlətlərin vergi sahəsindəki fəaliyyətlərini tənzimləyən konvensiyaya qoşulmasından irəli gəlir. Bu sənəd onu imzalayan yurisdiksiyaların üzərinə vergi ödəməkdən yayınmaya qarşı qlobal mübarizə çərçivəsində vergilərə aid informasiyaları mübadilə etmək öhdəliyi qoyur.

Virciniya adaları rəhbərliyinin vergilər sahəsində atdığı daha bir addım isə turizmlə bağlıdır. Adalara gələn turistlər sentyabrın 1-dən 10 ABŞ dolları məbləğində ekologiya və turist vergisi ödəyirlər.

Adalara aid bütün limanlarda bu vergi tutulur. Yığılan məbləğlər isə adalardakı ətraf mühitin mühafizəsinə, o cümlədən ətraf mühitin qorunmasına və yaxşılaşdırılmasına, iqlim dəyişməsinin minimuma endirilməsinə, turizm obyektlərinin inkişafına həsr olunan tədbirlərin keçirilməsinə yönəldiləcək.

Hava və ya dəniz limanına çatarkən qonağın gəliş və gediş kartında immiqrasiya xidmətinin əməkdaşı tərəfindən qeyd aparılır. Üzərində ştamp olan kartı turist gömrük xidmətinə təqdim edir, orada yığım tutulandan sonra isə ona ekoloji və turist bileti verilir.

Ərazidən kənarda yaşayan ada sakinləri yığımı ödəməkdən azaddırlar, lakin öz statuslarını təsdiqləmək məqsədilə şəxsiyyət vəsiqəsini və ya pasportu immiqrasiya xidmətinin əməkdaşına təqdim etməlidirlər.

## Hindistanda valyuta islahatı vergi ödənişinə müsbət təsir göstərib

Hökumətin böyük nominala malik valyutanı dövriyyədən götürmək barədə qərarı vergilərin ödənilməsi sahəsində də arzu olunan nəticənin əldə olunmasına və çirkli pulların yuyulması səviyyəsinin aşağı salınmasına yardım etmişdir.

Banknotların dövriyyədən çıxarılması qəlp pula və çirkli pulların yuyulmasına qarşı mübarizəyə, həmçinin terrorizmin maliyyələşdirilməsinə yönəldilmişdi. Bu tədbirə əl atılarkən məqsədlərdən biri də vergi bazasının genişləndirilməsi üçün kölgə iqtisadiyyatının rəsmiləşdirilməsinə şərait yaratmaq idi.

Maliyyə Nazirliyinin açıqlamasında bildirilmişdir ki, bu addımın atılması sayəsində vergi bəyannamələrinin doldurulmasında əhəmiyyətli dərəcədə artım müşahidə olunur. Bəyannamələrin sayında keçən il 9,9 faiz, bu il isə 24,7 faiz artım olmuşdur.

Avqust ayının əvvəlində əldə edilmiş göstəricilərə əsasən, yığılmış vergilərin məbləğində 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 41,79 faiz artım var. Yığılmış gəlir vergisinin həcmindəki artım isə 34,25 faizdir.

krossvord



**Yuxarıdan aşağı:** 1.Memarlıq termini. Qapı və ya pəncərəni iki yerə bölən üfüqi və ya şaquli hissə; 2.Zərb aləti; 3.Çində etiksiyasi təlim; 4.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 5.Uilyam Şekspirin məşhur faciəsindən personaj; 6.Zaqatala rayonunda kənd; 9.Sümüklü balıq növü; 13.Zinət əşyalarında istifadə olunan bəzək, daş-qaş (mineral); 15.İngilis yazıçısının soyadı. Daha çox «Alisa möcüzələr ölkəsində» əsəri ilə tanınır; 16.Juzun xanı, Qazaxıstanın azadlıq və müstəqillik simvolu; 17.Rusiya Federasiyasının Kemerevo vilayətində çay; 18.Türkiyə Cümhuriyyətinin paytaxtı; 20.Dəniz nəqliyyat vasitəsi; 21.Balıqçıların istifadə etdikləri alət.

**Soldan sağa:** 1.Pakistanın paytaxtı; 5.Zirehli texnika əleyhinə qumbaraatan; 7.Pravoslav kilsəsinin yüksək ruhani rütbəsini daşıyan şəxs; 8.Bəstəkar, Azərbaycanın xalq artisti. Məşhur mahnıların müəllifidir, bir sıra filmlərə musiqi bəstələyib; 10.Türk qadın adı; 11.ABŞ-da ştat; 12.Vyetnamın paytaxtı. Adı «çaylar arası şəhər» və ya «çaylar əhatə edilən yer» mənasını verir; 14.Siyənəkkimilər ailəsinə mənsub xırda balıq növü; 19.Kart oyunu; 21.Şəki rayonunda şəhər tipli qəsəbə. Əvvəlki adı Orconikidze olub; 22.Litvanın pul vahidi; 23.Zevsin doqquz qızından ən böyüyü və ən ağıllısı, epik poeziya muzası. Adı «gözəlsəsli» mənasını verir; 24.Klassik Azərbaycan ədəbiyyatında obraz - sevgili, dost, yoldaş mənaları verir; 25.XV əsrdən istifadə olunmağa başlanmış yelkənli gəmi.



*«Balıqçının sevinci». Vaqif Ucatay*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ləngan; 2.Kolbasa; 3.Muila; 4.Truppa; 5.Daraq; 6.Vəzəri; 9.AFFA; 13.Azot; 15.Paytaxt; 16.Skaner; 17.Septik; 18.Saxara; 20.Rəvan FK; 21.Nelli *(Ataullayeva)*. **Soldan sağa:** 1.Lokomotiv; 5.Div; 7.Nollivud; 8.Araz; 10.Adana; 11.Pifaqor; 12.Bazar; 14.Saipa; 19.Karaoke; 21.Noyda; 22.Neva; 23.Atellana; 24.Rin; 25.Eskuintla.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

## idman

# Yeniyetmə güləşçilərin dünya çempionatına yekun vurulub



**Vətənə 10 medalla qayıdan pəhləvanlarımızın çıxışını uğurlu hesab etmək olar**

Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı başa çatıb. Yarışın son günündə - sentyabrın 10-da 46, 54, 63, 76 və 100 kiloqram çəki dərəcələrində sərbəst güləşçilər mübarizəyə qoşulub.

Komandamız günü 1 bürünc medalla başa vurub. Dünya çempionatında 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Hacımurad Hacıyev ardıcıl olaraq Kanada və Almaniyadan olan rəqiblərini vaxtından əvvəl, daha sonra isə Hindistan təmsilçisini texniki üstünlüklə məğlub edib. Yarımfinalda Rusiya idmançısına uduzan təmsilçimiz bürünc medal uğrunda görüşdə Monqolustan idmançısına da vaxtından əvvəl tam üstünlüklə qalib gəlib və çempionatın bürünc medalını qazanıb.

Beləliklə, sərbəst güləşçilərimiz çempionatı 1 qızıl, 3 gümüş və 1 bürünc medalla başa vurublar. Bu nəticə ilə sərbəst güləş yığmamız komanda hesabında 61 xalla 3-cü nəticə göstərib. Rusiya 73 xalla birinci, ABŞ komandası isə 66 xalla ikinci yeri tutub.

Qeyd edək ki, yığma komandamızın üzvləri yunan-Roma güləşi yarışlarında 1 qızıl və 2 gümüş, yeniyetmə qızların yarışında isə 1 qızıl və 1 bürünc medala sahib olub.



Futbol üzrə UEFA Avropa Liqasının «I» qrupunda keçiriləcək «Vitoriya» (Portuqaliya) - «Salzburq» (Avstriya) oyununu FIFA referisi Əliyar Ağayev idarə edəcək. AFFA-dan bildirilib ki, Ə.Ağayevin köməkçiləri Zeynal Zeynalov və Rza Məmmədov olacaqlar. Dördüncü hakim funksiyasını Mübariz Haşımov yerinə yetirəcək. Əlavə köməkçi hakimlər isə Rəhim Həsənov və Orxan Məmmədovdur. Qeyd edək ki, oyun sentyabrın 14-də D.Afonso Henriques stadionunda keçiriləcək.

# Dünya kuboku uğrunda yarışın qalibi Azərbaycan komandası oldu



Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) və Beynəlxalq Polo Federasiyasının (BPF) birgə təşkilatçılığı ilə Binə Atçılıq Mərkəzində təşkil edilən arena polo üzrə Dünya kuboku yarışlarına sentyabrın 10-da yekun vurulub.

Azərbaycanın «Elite Horse and Polo Klub» komandası yarışların finalında İsveçrənin Evviva Polo Klub St.Moritz» klubunu 11,5:5 xal hesabı ilə məğlub edərək Dünya kubokuna sahib olub. Bu mötəbər yarışda komandamızın heyətində Elçin Camallı, Rəşad Həsənov, Əli Rzayev, Amil Namazov, Tərlan Qurbanəliyev, komandanın baş məşqçisi və oyunçusu Andres Laplasette çıxış ediblər. Azərbaycan təmsilçisinin kapitanı Elçin Camallı turnirin ən yaxşı oyunçusu seçilib.

Üçüncü yer uğrunda gərgin idman mübarizəsi şəraitində keçən görüşdə ABŞ-ın «Qrand Çampions Polo Klub» komandasının poloçuları Monakonun «Monte-Karlo Polo Team» kollektivi üzərində 6,5:3 xal hesabı ilə qələbə qazanıblar.

Sentyabrın 8-dən 10-dək keçirilən Dünya kuboku yarışlarında dörd güclü beynəlxalq peşəkar polo komandası - Azərbaycanın «Elite Horse and Polo Klub», ABŞ-ın «Qrand Çampions Polo Klub», İsveçrənin «Evviva Polo Klub St.Moritz» və Monakonun «Monte-Karlo Polo Team» mübarizə aparıb.

Qeyd edək ki, dünyada qədim çövkən oyununun vətəni kimi tanınan Azərbaycan 2013-cü ildən etibarən Beynəlxalq Polo Federasiyasının üzvüdür. Son illərdə Azərbaycanın paytaxtında bir neçə uğurlu polo turniri keçirilib. Yüksək səviyyədə keçirilmiş bu turnirlərdən sonra 2015-ci ildə Bakıda təşkil edilmiş arena polo üzrə birinci Avropa çempionatında Azərbaycan komandası qalib gəlib. 2018-ci ildə İtaliyada keçiriləcək Avropa çempionatında ölkəmiz də təmsil olunacaq. Həmçinin Bakının 2020-ci ildə keçiriləcək otüstü polo üzrə Avropa çempionatına ev sahibliyi etmək üçün namizədliyi irəli sürülüb.

# UEFA-nın mənzil-qərargahında təqdimat

UEFA Çempionlar Liqası və UEFA Avropa Liqası turnirlərinin 2019-cu ildə keçiriləcək final oyununun təşkili ilə bağlı Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) Bakı Olimpiya Stadionunun namizədliyini irəli sürüb.

Sentyabrın 5-də UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında AFFA-nın prezidenti Rövnəq Abdullayevin də iştirak etdiyi tədbirdə Bakının namizədliyi ilə əlaqədar təqdimat mərasimi keçirilib. Tədbirdə AFFA-nın vitse-prezidenti Elşad Nəsirov və baş katib Elxan Məmmədov da iştirak ediblər.

Oyunların keçiriləcəyi stadionlarla bağlı UEFA İcraiyyə Komitəsinin qərarı bu il sentyabrın 21-də açıqlanacaq.

## mozaika

faydalı



# Gözə itdirsəyi çıxanda...

İtdirsəyi göz qapağındakı kirpik kisəsinin və ya piy vəzisinin kəskin iltihabıdır, ilkin olaraq göz qapağının kənarında ağrılı nöqtənin əmələ gəlməsi ilə başlayır, sonra onun ətrafında şişkinlik və qızartı yaranır, göz qapağı şişir. İki-üç gündən sonra həmin sahədə sarı rəngli irinli «başcıq» əmələ gəlir, deşiləndən sonra içindəki irin xaric olur.

Göz qapağında eyni zamanda bir neçə itdirsəyinin əmələ gəlib birləşməsi baş verəndə xəstənin ümumi vəziyyəti ağırlaşır, temperaturun yüksəlməsi, çənəaltı və qulaqaltı limfa vəzilərinin böyüməsi kimi əlamətlər yaranır.

İtdirsəyi keçib getməyəndə göz qapağının içərisində kiçik şiş kimi qalanda ona xalazyon deyilir. Xalazyon ağrı vermir, lakin kosmetik qüsura gətirib çıxarır və çətinliklə müalicə olunur.

İtdirsəyi çıxarkən bir neçə sadə üsulla onun qarşısını almaq olar. Məsələn, soğan, sarımsaq, qoz yarpağı və ya gül suyu gözə dəyməmək şərti ilə itdirsəyi çıxan nahiyəyə çəkilir. Çovdar unu, zeytun yağı və sarımsaq əzməsi qarışığından ibarət xəmirəbənzər kütlə itdirsəyini sağaldır. Təzə dəmlənmiş qara çaya pambıq batıraraq tampon qoyulur.

2 çay qaşığı peyğəmbər çiçəyi bitkisi yaxşı qaynanmış 1 stəkan suda dəmlənilərək 1 saat saxlanılır, alınan çıxarışdan gözə islatma qoyulur.

1 xörək qaşığı üyüdülmüş gül-dəfnə toxumu az miqdarda qaynar su ilə qarışdırılır və alınan kütlə dörd-beş qat tənzifin üzərinə qoyulur. Soyuyandan sonra gözə islatma qoyulur.

Tənzif parçası gənəgərçək yağında isladılır, gözə qoyularaq bir gecə saxlanılır. Prosedurun iki-üç dəfə təkrar olunması itdirsəyinin sağalması üçün kifayət edir.

Əzvay yarpağı xırda doğranır, üzərinə 1 stəkan soyuq su tökərək 8 saat otaq temperaturunda saxlanır və süzülür. Alınan çıxarışla gündə 2-3 dəfə gözlərə 15 dəqiqə islatma qoyulur.

Gülxətmi çiçəyi və evkalipt yarpağının dəmləmələrini də itdirsəyi çıxan gözə qoymaq olar.

elm

# Xərçəng hüceyrələri nanorobotlarla məhv edilir

Üç nəfərdən ibarət beynəlxalq alimlər qrupu xərçəng hüceyrələrini tez və effektiv məhv etmək imkanına malik mikroskopik robotlar hazırlayıblar. Tədqiqatçılar ötən il bu robotların yaradılması üzrə kimya sahəsində Nobel mükafatını alıblar. Bu il isə onların sınaqlarını keçirməyə başlayıblar.

Nanomaşınlar əvvəlcə zülalın müəyyən növünə hədəflənir, buna görə də hədəfi səhv etmədən tapır. Robotlar işığın köməyi ilə aktivləşdirilərsə, sürətlə fırlanaraq hüceyrənin daxilinə girir və onu dəqiqələr ərzində məhv edir. Nanorobotlar hədəflərin axtarışını işığın iştirakı olmadan həyata keçirir, lakin onun daxilinə girməyi yalnız işıq sayəsində bacarır.



Nanorobotlar o qədər kiçikdir ki, hətta onun 50 min nüsxədən ibarət «sırası» qalınlığına görə insanın saç teli qədərdir. Alimlər, həmçinin balıq və mikroorqanizmlər üzərində bir sıra sınaqlar keçiriblər. Lakin onlar ümid edirlər ki, gələcəkdə nanorobotlardan insanın müalicəsi üçün istifadə edə biləcəklər. Bu kimi robotlar şişlərin məhv edilməsi ilə yanaşı, orqanizmin müəyyən nahiyəsinə dərmanın çatdırılması üçün də istifadə oluna bilər.

cəmiyyət

# Lütfi Zadə vəfat edib

Dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi, Kaliforniya Universitetinin professoru Lütfi Zadə sentyabrın 6-da dünyasını dəyişib. Bu barədə məlumatı Zadə ailəsinin yaxın dostu, professor Lütfi Zadənin son aylarında hər zaman onun yanında olan Azərbaycan Texniki Universitetinin professoru Şahnaz Şahbazova verib.




Xatırladaq ki, avqust ayında Lütfi Zadənin Azərbaycanda dəfn edilməsi üçün məsuliyyətli şəxs kimi məhz Şahnaz Şahbazovaya vərəsə məktubu təqdim olunub. Məktubda professorun vəfatından sonra onun nəşinin Azərbaycanda dəfn edilməsi vəsiyyət edilir. Məktubu professor Lütfi Zadənin oğlu Norman Zadə imzalayıb. Məktubda, həmçinin, professor Lütfi Zadənin bütün mükafatlarının, orden və medallarının professor Şahbazovaya vəsiyyət edildiyi qeyd olunub.

Dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi, Kaliforniya Universitetinin professoru Lütfi Zadə 1921-ci ilin 4 fevral tarixində Bakı şəhərində anadan olub. 1944-cü ildə Tehran universitetini elektrik mühəndisliyi ixtisası üzrə bitirib.

1944-cü ildən 1959-cu ilə qədər Lütfi Zadə Massaçusets Texnologiya İnstitutunda və Kolumbiya Universitetində magistr, doktorluq elmi dərəcələrini alıb.1959-cu ildən Berkli Universitetində professor, 1963-cü ildən isə «Elektrik mühəndisliyi və kompüter elmləri» kafedrasına rəhbərlik edib.

Son vaxtlara kimi L.Zadə həmin universitetdə ömürlük professor və Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərib. Onun məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiq edir.

L.Zadənin ən böyük nəzəriyyəsi qeyri-səlis məntiq nəzəriyyəsidir. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə verib: qeyri-səlis çoxluq. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaradıb.

texnologiya

# Həşəratların göz forması işə yaradı

ABŞ-ın Stenford Universitetinin alimləri yeni günəş batareyaları hazırlayıblar. Onlar həşəratların mürəkkəb quruluşa malik gözlərindəki mikrolinzalara oxşar günəş elementlərinin dizaynından istifadə ediblər. Yeni texnologiya günəş panellərinin hazırlanmasında «perovskit» adlı mineraldan istifadə ilə bağlı problemlərin öhdəsindən gəlməyə kömək edəcək.

Günəş panellərinin əksəriyyəti yastı formadadır, lakin «perovskit»lər əsasında günəş batareyaları üçün bu qəbuledilməzdir. Bu səbəbdən alimlər həşəratların göz formasından istifadə etməyə qərar veriblər. Yeni texnologiyanın sayəsində «perovskit» əsasında olan günəş elementi 85 dərəcə istiyə və altı həftə ərzində 85 faiz nisbi rütubətə davam gətirə biləcək.

**Müdriklər deyib ki...**



*«Asudəlik istəyirsənsə, vaxtını hədər yerə itirmə».*

*Benjamin Franklin (1706-1790)*